Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

4
İYUN
2019-cu il
№ 98 (3996)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# MXİTARYAN UĞURSUZLUĞUNDAN SONRA ERMƏNİ LOBBİSİNİN AZƏRBAYCANA QARŞI «UNESCO ANTİKAMPANİYASI» BAŞLAYIR...

■ səh. 6 ■

Ermənistanın status-kvonu uzatmaq cəhdi savaşı qaçılmaz hala gətirdi - Azərbaycan BMT baş katibinə müraciət etdi

■ səh. 9 ■

İslam Əməkdaşlıq Təşkilatı müsəlman dövlətləri qarşısında Ermənistanla bağlı konkret tələb qoydu

■ səh. 2 ■

Avropanın enerji təhlükəsizliyində Azərbaycan-Türkiyə tandeminin alternativsizliyi - Avrokomissiyanın yeni hesabatı...

■ səh. 8 ■

Ermənistan siyasətinin "açarları" Moskvaya toplanır - Paşinyan Putinlə məsələni tənzimləyə bilməsə...

■ səh. 10 ■

Ziya Məmmədovun tərpənişləri - Trampla əlaqələr kartını kimlər yenidən dövriyyəyə gətirir...

■ səh. 7 ■

Azərbaycana turist axınında çinlilər və yaponlar ərəbləri üstələməyə başlayıb

■ səh. 15 ■

Bakı bağçasında müəllimənin 2 yaşlı uşağa misilsiz vəhşiliyi...

■ səh. 14 ■

Diyarşünaslıq muzeylərimizdə "qarışıq eksponatlar" problemi...

■ səh. 13 ■



■ səh. 5 ■

## Əsgər Melkonyan qondarma «DQR» «ordusu»nda İrəvan və Qarabağ klanları arasında intriqanın qurbanı oldu - ölümü Azərbaycanın üstünə atmağın perspektivsizliyi...



Ermənistan mayorumuzun qətlini dolaşdırmağa başlayır - təcavüzkarın «üçüncü qüvvələr» taktikası...

■ səh. 3 ■



ABŞ bankında yüzlərlə erməni qrupunun maliyyə fırıldağı - mənimsənilmiş milyonlar...

■ səh. 5 ■



Dünya mediasında futbol təşkilatçılığı mövzusunda Bakı ilə Madridin maraqlı müqayisəsi başlayıb...

■ səh. 4 ■

■ səh. 7 ■

Rayonların ictimai həyatında müvafiq deputatların passiv iştirakına ciddi narazılıqlar var...



■ səh. 6 ■

Ermənistan Kəlbəcərdə qanunsuz kurort zonası yaradır...



■ səh. 12 ■

Saytlarını ölü vəziyyətə salmış dövlət qurumları cəzalandırılacaq...



■ səh. 14 ■

Təhsil Nazirliyinin daha bir layihəsi - yerini dəyişmək istəyən müəllimlər...



■ səh. 15 ■

Rəsmi dayanacaqlarda əhalidən inanılmaz pul qopartma üsulu - itirilən çekə görə 10-15 manat cərimə...



## Prezident İlham Əliyev möminlərə Ramazan ayının böyük missiyasını belə ifadə etdi - "...mömin vətəndaşlarımız mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar"



**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

Təbrikdə deyilir: "Hörmətli həmvətənlər! Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır.

Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini vermiş, böyük alimlər və mütəfəkkirlər yetişdirmişdir. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcək. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

**Ramazan bayramınız mübarək olsun!"**

## Prezident Əliyev Surqut hava limanına Fərman Salmanovun adının verilməsi ilə bağlı Putinə təşəkkürünü bildirdi

**Prezident İlham Əliyev iyunun 3-də Rusiya Prezidenti Vladimir Putinə zəng edib.**

Prezident telefon danışığında Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi ilə bağlı təşəkkürünü bildirib və bu qərarın Azərbaycan ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qəbul edildiyini vurğulayıb.

Telefon söhbəti zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əldə edilmiş nailiyyətlərdən məmnunluq ifadə olunub. Azərbaycan və Rusiya prezidentləri əlaqələrimizin inkişafına dair müxtəlif məsələlər və əməkdaşlığımızın perspektivləri, eləcə də gələcək təmaslar haqqında fikir mübadiləsi aparıblar.

## Azərbaycan Prezidenti Avropa İttifaqının xüsusi nümayəndəsi ilə Qarabağ məsələsini müzakirə etdi

**Prezident İlham Əliyev iyunun 3-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı, həmçinin, Azərbaycan və Avropa İttifaqı arasında nəqliyyat, enerji, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin inkişaf perspektivləri müzakirə edilib.

## Dünya Bankı Azərbaycanda növbəti illər üçün Sosial-İqtisadi İnkişaf Proqramının hazırlanmasında məsləhətçi kimi iştirak etmək istəyir

*Yeni regional direktor Prezident İlham Əliyevin qəbulunda daha nə dedi?*

**Prezident İlham Əliyev iyunun 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini də qəbul edib.**

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycanda fəaliyyət müddətinin başa çatdığını qeyd edərək, ötən dövr ərzində ölkəmizlə təmsil etdiyi qurumun səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğulayıb. Bu müddətdə ölkəmizin Dünya Bankı ilə əlaqələrinin çox uğurlu olduğunu deyən Mersi Tembon "Doing Business" hesabatında Azərbaycanın əhəmiyyətli dərəcədə irəli getməsini önəmli hadisə kimi dəyərləndirib. Son illərdə Azərbaycanın sürətlə inkişaf etdiyini bildirən qonaq Prezident İlham Əliyevin rəhbərliyilə Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıqda böyük uğurlara nail olunduğunu xüsusi vurğulayıb. Ölkəmizlə əməkdaşlığın perspektivlərinə toxunan Mersi Tembon qarşıdakı illər üçün növbəti sosial-iqtisadi inkişaf proqramının hazırlanmasında Dünya Bankının Azərbaycana məsləhətçi kimi dəstək verməyə hazır olduğunu deyib. Qeyd edib ki, artıq Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı, özünüməşğulluq sahələrində Dünya Bankı ekspertləri ilə ölkəmizin müvafiq strukturları arasında layihələrin hazırlanmasına başlanıb. O, icbari tibbi sığorta və ədliyyə sahələrində də işlərin getdiyini bildirib. Sonra Mersi Tembon Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösü təqdim edərək əminliyini bildirib ki, gələcək illərdə də Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq uğurla davam etdiriləcək. Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı Azərbaycanla Dünya Bankı arasında əməkdaşlığın inkişaf etdirilməsində Mersi Tembonun rolunu yüksək qiymətləndirib və Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösə fəaliyyətində uğurlar arzulayıb.

## İslam Əməkdaşlıq Təşkilatı müsəlman dövlətləri qarşısında Ermənistanla bağlı konkret tələb qoydu

**Bu ilin 31 may tarixində Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) dövlət və hökumət başçılarının 14-cü zirvə görüşü keçirilib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsindən "Bakı Xəbər"ə verilən məlumata görə, "Ələ gələcəyə doğru" devizi altında keçirilən İƏT-in bu görüşündə Azərbaycan Respublikasını Baş nazir Novruz Məmmədov təmsil edib.



Zirvə görüşü nəticəsində yekun Kommünike qəbul edilib. Sənədin 34 və 35-ci bəndlərində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti ilə bağlı İƏT-in prinsipial mövqeyi öz əksini tapıb. Belə ki, bu bəndlərdə Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzkar siyasəti pislənir, beynəlxalq hüquq və BMT Nizamnaməsi ilə ərazilərin güc tətbiq etməklə işğalının qəbuledilməzliyi təsdiqlənir, BMT TŞ-nin 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi və işğalçı qüvvələrin Azərbaycan Respublikasının ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Sənəddə İƏT dövlət və hökumət başçıları münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həllinə çağırır. Burada, həmçinin, Azərbaycanın Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərində işğalçının davamlı silahla təmin edilməsi, ərazilərin demoqrafik, mədəni və fiziki xarakterinin dəyişdirilməsinə yönəlik qanunsuz fəaliyyət, o cümlədən mədəni irsin və müqəddəs yerlərin dağıdılması və mənimsənilməsi, ictimai və şəxsi mülklərə müdaxilə etməklə qanunsuz iqtisadi və digər fəaliyyətin davam etdirilməsindən dərin narahatlıq ifadə olunur.

Bununla bağlı İƏT üzv ölkələrindən effektiv tədbirlərin həyata keçirilməsi, o cümlədən, işğalçıya öz ərazilərindən və ya əraziləri vasitəsilə silah ötürülməsinin, fiziki və hüquqi şəxslərin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hər hansı fəaliyyətinin və işğalın saxlanmasına xidmət edəcək hər hansı fəaliyyətin milli qanunvericilikləri vasitəsilə qarşısının alınması tələb olunur. Sənəddə Azərbaycanın, BMT Baş Assambleyası vasitəsilə də daxil olmaqla, ərazi bütövlüyü və suverenliyini bərpa etmək səylərinə prinsipial dəstək bir daha təsdiq olunur.

Yekun Kommünikedə, habelə, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə İƏT Təmas Qrupunun fəaliyyətinə tam dəstək ifadə olunur.

## Məşhur ingilis futbol şərhçisi Bakı ilə Madriddəki futbolu müqayisə edib dəhşətə gəldi...

**İngiltərənin ən məşhur futbol ekspertlərindən biri Brayan Uirli BBC-yə açıqlamasında Bakıda təşkil olunmuş Avroliqanın final oyunu ilə Madriddəki Çempionlar Liqası matçı arasında maraqlı müqayisə aparıb**



Baki-xeber.com xəbər verir ki, Brayan Bakıdakı matçda təşkilatçılığı əla qiymətləndirib.

"Bakı uzaq olsa da, oradakı matçın təşkili əla idi. Şəhər çox təmiz, təhlükəsiz, stadiona gediş rahat. Madrid əsl cəhənnəm oldu. Çempionlar Liqası tarixində ən pis təşkil olunmuş matçdı. Mən və İngiltərədən "Çelsi" - "Arsenal" matçını seyr etmək üçün Bakıya getmiş on minlərlə fanat qarışlaşmaya ev sahibliyi edən Azərbaycanın paytaxtındakı hazırlıq və təşkilat səviyyəsindən, infrastrukturdan, təhlükəsizliyin təminatından vəcdə gəldik" - Brayan Uirli deyib.

# Ermənistan mayorumuzun qətlini dolaşdırmağa başlayır - təcavüzkarın "üçüncü qüvvələr" taktikası...

**Azad İsazadə:** *"Kodlu şifrə ilə çatdırmaq istəyir ki, mayoru Rusiyanın əmri ilə "DQR" öldürüb"*

**Azərbaycan Ordusunun mayorunun cəbhədə snayperlə qətlə yetirilməsi ilə bağlı məsələdən sonra Ermənistan təbliğat maşını çarəsiz durumdadır. Mayorun qətlinin həmsədrlərin Bakıya səfəri və Ermənistandakı qaynar ziddiyyətlərin hakim olduğu dönəmə təsadüf etməsi bir çox sualın ortaya çıxmasına əsas verdi.**




Azərbaycan tərəfi doğru olaraq həmin hadisənin təxribat olduğunu təsbit etdi. Ancaq təxribatın Ermənistandan, yoxsa qondarma "DQR"dən edilməsi barədə araşdırmalara başlandı. İctimai rəydə bu sualın cavabı kimi çoxlu sayda rəy yazıldı. Ancaq maraqlıdır ki, erməni KİV-i Azərbaycanda gedən bu müzakirələrin guya əsassız olduğunu iddia etməyə başlayıb. Hətta deyirlər ki, bu, üçüncü qüvvənin işi ola bilər. Yəni, faktiki olaraq, ermənilər mayorumuzun onlar tərəfindən öldürüldüyünü rəsmən inkar edirlər. Bəs onda onların bu "təxribatda" ittiham etmək istədiyi üçüncü qüvvə kim ola bilər və ermənilər niyə bu versiyanı ortaya atırlar?

**Hərbi ekspert Azad İsazadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, elə ermənilər bu ifadəni işlətməklə, əslində, bir həqiqəti ifadə etmiş olublar:** "Tərəflərdən biri məlumdur. Bu, Azərbaycandır. Təbii ki, Azərbaycan öz mayorunu snayperlə vurmaqda maraqlı ola bilməz. Digər iki tərəf isə Ermənistanın daxilindədir. Onlardan biri Paşinyan, digəri isə Bako Saakyandır. Ermənilər fikri özlərindən yayındırmaq üçün bu versiyanı ortaya atıblar. Onlar istəyirlər ki, izi münaqişə tərəflərindən başqa istiqamətə azdırsınlar. Daha çox Rusiya amilinə işarə etmək istəyirlər. Amma Rusiya bunu etsə belə, yenə də Ermənistandakı münaqişə tərəflərinin əli ilə etmiş olacaq. Bu bəyanatı İrəvan verirsə, deməli, kodlu şifrə ilə çatdırmaq istəyir ki, mayoru Rusiyanın əmri ilə "DQR" öldürüb. İstənilən halda, bu atəş erməni snayperindən açılıb. Yadınızdadırsa, bir müddət əvvəl Paşinyan bəyan etdi ki, "Qarabağ klanı cəbhə bölgəsində təxribat törədilməsində maraqlıdır. Belə olduqda, Azərbaycan adekvat addım atmağa məcbur olacaq və torpaqlarını işğaldan azad edəcək. Bunu da mənim hakimiyyətimin üzərinə yıxmaq istəyirlər". Bu bəyanatdan sonra Azərbaycan Silahlı Qüvvələrinin mayoru Aqil Omarov şəhid oldu. Təxribat kədərli olsa da, bu fakt onu göstərir ki, Ermənistandakılar hakimiyyətə nəzarəti itiriblər. Ermənistandakı hakimiyyət Qarabağı nəzarətdə saxlaya bilmir. Onların izi özlərində azdırmağa çalışmasının bir amili də snayperlə bağlıdır. Çünki Ermənistan daim tələb edib ki, təmas xəttindəki snayperlər uzağa çəkilsin. İndi isə məlum olur ki, onların öz snayperləri daha yaxın məsafədədir.

*"Bunun üçün çox uğursuz bir taktika seçiblər"*

Bununla da beynəlxalq aləm qarşısında özlərini biabır ediblər. Məqsədləri bəllidir. İstəyiblər ki, təxribt törətməklə sülh danışıqlarına mane olsunlar, ancaq bunun üçün çox uğursuz bir taktika seçiblər. İndi də snayper mövzusunu üzərlərindən başqasının boynuna atmağa çalışırlar".

**Məhəmmədəli QƏRİBLİ**

# Polşa Prezidentinin bəyanatı hansı siyasi perspektiv vəd edir - Qarabağ münaqişəsinin həllində Azərbaycan həmişə bizim dəstəyimizə arxalana bilər...

**Elman Nəsirov:** *"Polşa Prezidentinin bu mövqeyi bizim üçün çox əhəmiyyətlidir"*

**Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün Azərbaycan dövlətinin haqlı mövqeyini dəstəkləyən dövlətlərin sırası genişlənir. Məlum olduğu kimi, Bakıda rəsmi səfərdə olan Polşa Prezidenti Andjey Duda da bu məsələdə Azərbaycanın hər zaman Polşanın dəstəyinə arxayın ola biləcəyini deyib. "Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları əsasında həllində hər zaman bizim dəstəyimizə arxalana bilər"- bəyanatı ilə çıxış edən Polşa Prezidenti Andjey Duda bildirib ki, bu problemin həlli istiqamətində Polşa Azərbaycana kömək edəcək:**



*"... Azərbaycanın həm siyasi, həm də hüquqi baxımdan mövqelərini gücləndirən amildir"*

"Bu gün, cənab Prezident, Siz ərazi bütövlüyü məsələsinə toxundunuz və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyinizi bildirdiniz. Bilirik ki, bu məsələ uzun illərdir həll olunmamış qalır. Hazırda biz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüyük. Biz bəyan etmək istəyirik ki, Azərbaycan bu münaqişənin beynəlxalq hüququn normaları əsasında həllində hər zaman bizim dəstəyimizə arxalana bilər. Biz bu problemin sülh yolu ilə həll olunmasında Sizə yardım edəcəyik. İstəyirik, arzumuzu bildirək ki, bu, belə də olsun. Biz istərdik ki, Minsk qrupu çərçivəsində aparılan danışıqlar bundan sonra da davam etsin və müsbət nəticələr gətirsin. Beləliklə, bu uzunmüddətli münaqişə öz həllini tapa bilər".

Polşa Prezidentinin Azərbaycanla bağlı verdiyi dəstək bəyanatı ölkəmiz üçün nə deməkdir?

Millət vəkili, siyasi icmalçı Elman Nəsirov baki-xeber.com-a bildirdi ki, Polşa Prezidenti Azərbaycanda olarkən təkcə ikitərəfli əməkdaşlığımıza dair məsələləri deyil, xüsusilə də Ermənistan-AzərbaycanDağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı öz aydın, konkret mövqeyini ifadə etdi. "Bildirdi ki, Polşa dövləti bu münaqişənin tənizmlənməsi prosesində Azərbaycanın mövqeyini dəstəkləyir, bu mövqe də beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. Beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanmaq isə o deməkdir ki, münaqişə Azərbaycanın ərazibütövlüyü, sərhədlərinin toxunulmazlığı çərçivəsində öz həllini tapmalıdır. Çünki münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatların, xüsusilə də BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsində Avropa Şurasının Parlament Assambleyasının qəbul etdiyi bir sıra sənədlərdə, Avropa Parlametinin müvafiq sənədlərində, digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə məhz beynəlxalq hüququn ərazibütövlüyü, sərhədlərin toxunulmazlığı və suverenlik prinsipləri öz əksini tapıb. Buna görə də hesab edirəm ki, Polşa Prezididentinin bu mövqeyi bizim üçün çox əhəmiyyətlidir. Çünki Polşa həm Avropa İttifaqı, eyni zamanda da NATO ölkəsidir. Yəni o həm dünyanın ən nəhəng hərbi siyasi təşkilatının, həm də bu gün dünyanın iqtisadi güc mərkəzlərindən biri olan, ümumdaxili məhsulun təxminən 25 faizini istehsal edən Avropa ittifaqının üzvüdür. Bilirsiz ki, Polşa dövlətinin Azərbaycanla tarixi ənənələr üzərində qurulan münasibətləri var, polşalı memarların Azərbaycanda tarixi xidmətləri olub. Polşa dövlətinin rəhbəri tərəfindən münaqişənin tənzimlənməsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi, heç şübhəsiz, münaqişənin tənzimlənməsi prosesində Azərbaycanın həm siyasi, həm də hüquqi baxımdan mövqelərini gücləndirən amildir. Onu da nəzərə alsaq ki, Azərbaycan Avropa İttifaqı ilə strateji tərəfdaşlıq müqaviləsi üzərində iş aparır və onun yaxın perspektivdə imzalanması gözlənir. Bu baxımdan da hesab edirəm ki, Polşanın Azərbaycana olan bu isti münasibəti, münasibətlərimizin geniş spektrdə inkişaf etməsi, həm də bizim üçün fundamental əhəmiyyət kəsb edən məsələdə, Ermənistan-AzərbaycanDağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyimizi dəstəkləməsi, heç şübhəsiz, əlaqələrimizin inkişaf səviyyəsinin ifadəsidir. Bayaq dediyim kimi, bu həmçinin də Avropa İttifaqı ilə imzalanması planlaşdırılan sənədlə bağlı işlərin yekunlaşdırılmasında və Azərbaycanın bu məsələdə Polşa tərəfindən mövqeyinin müdafiə edilməsində yeni imkanlar açmış olur"- deyə E.Nəsirov vurğuladı.

**İradə SARIYEVA**

**Məlum olduğu kimi, Bakıda Avroliqanın finalında "Arsenal"la "Çelsi, Madriddə isə iyunun 1-də yenə də iki ingilis komandası Çempionlar Liqasının finalında görüşdülər. Bakı ilə müqayisə edəndə Madriddə bu gözəl futbol yarışmasının, əslində, futboldan başqa hər şeyə oxşadığına sadəcə heyrət edirsən və bir daha dönüb Bakıdakı futbol finalına nəzər yetirirsən. Belə müqayisə aparan tək biz deyilik.**

# Dünya mediasında futbol təşkilatçılığı mövzusunda Bakı ilə Madridin maraqlı müqayisəsi başlayıb...



*"Məlum oldu ki, İspaniya kimi inkişaf etmiş Avropa ölkəsində biabırçı mənzərə yaşanıb"*

## *Azər Həsrət: "Bizə qara yaxanlar bununla yanıldılar və müqayisə aparmaqla bunu etiraf etdilər"*

Dünya, o cümlədən, Avropa mediası bununla bağlı müqayisə aparıb. Məlum olub ki, Madriddə yaşananlar çox biabırçı bir mənzərə yaradıb. Məsələn, İngiltərənin məşhur futbol ekspertlərindən biri Brayan Uirli BBC-yə müsahibəsində bildirib ki, Bakıda matçın təşkili əla idi. O, Bakıda təşkil olunmuş Avroliqanın final oyunu ilə Madrid matçını müqayisə edib: "Bakı uzaq olsa da, oradakı matçın təşkili əla idi. Şəhər çox təmiz, təhlükəsiz, stadiona gediş rahat... Madrid əsl cəhənnəm oldu. Çempionlar Liqası tarixində ən pis təşkil olunmuş matçdır. Mən və İngiltərədən "Çelsi"-"Arsenal" matçını seyr etmək üçün Bakıya getmiş on minlərlə fanat qarşılaşmaya evsahibliyi edən Azərbaycanın paytaxtındakı hazırlıq və təşkilat səviyyəsindən, infrastrukturdan, təhlükəsizliyin təminatından vəcdə gəldik".

B.Uirli Madriddə qarşılaşmaya hazırlıq səviyyəsindən, təhlükəsizlik tədbirlərindən, infrastrukturdan tutmuş, biletlərin satışınadək hər şeyin çox pis olduğunu deyib.

Digər media vasitələrində də bənzər müqayisələr yer alıb. Məlum olub ki, polis Madriddə çoxlu sayda saxta bilet satanları həbs edib. Orada otel və hostel qiymətləri çox baha olub, polis fanatları təhqir edib və s.

Bakıda keçirilən oyuna münasibətdə isə ancaq xoş təəssüratlar yer alıb. Bütün bu deyilənlərin fonunda, Bakı ilə Madridin müqayisəsi nəyin nəticəsidir?

**Məsələyə münasibət bildirən media eksperti Azər Həsrət buna bir neçə aspektdən yanaşdı:** "Bakıda Avroliqa ərəfəsində dünya mediasında, xüsusən də ingilislərə, ermənilərə yaxın olan mediada Azərbaycanın mənfi obrazını yaratmağa çalışdılar. Azərbaycan haqqında olmazın böhtanlar uyduruldu. İddia olundu ki, guya Bakı Avroliqanın finalına layiq deyil. Ancaq bütün bu deyilənlərin əksinə olaraq, Azərbaycan, həmişə olduğu kimi, çox yüksək təşkilatçılıq nümayiş etdirdi. Ümumiyyətlə, heç bir fövqəlada hadisə yaşanmadan bu oyun yüksək səviyyədə keçirildi. Heç kim bizə qarşı ciddi və əsaslandırılmış narazılıq edə bilmədi. Yəni bizə qarşı səsləndirilən ittihamlar öz təsdiqini tapmadı. Bunun ardınca Madriddə Çempionlar Liqasının finalının keçirilməsi hər bir işimizə yaradı. Niyə? Ona görə ki, dünya mediasında müqayisə etmək üçün imkan yarandı. Məlum oldu ki, İspaniya kimi inkişaf etmiş Avropa ölkəsində biabırçı mənzərə yaşanıb. Belə olan halda, Azərbaycan nəinki daha yaxşı final keçirə bilər, ümumiyyətlə, Avropa İttifaqı ölkələrinin istənilən bir üzvündən daha yaxşı tədbir keçirə bilər. Azərbaycanın bu sahədə böyük təcrübəsi var. Son oyunla Azərbaycan bunu bir daha sübut etdi. Bizə qara yaxanlar bununla yanıldılar və müqayisə aparmaqla bunu etiraf etdilər. Bu da onun hesabına baş verdi ki, Azərbaycan üzərinə götürdüyü istənilən öhdəliyi yüksək səviyyədə yerinə yetirməyi bacarır".

***Vidadi ORDAHALLI***

**Bakıda mayın 29-da Avroliqanın finalında "Arsenal"la "Çelsi", Madriddə isə iyunun 1-də gecə yenə də iki ingilis komandası Çempionlar Liqasının finalında görüşdü. Bakı ilə müqayisə edəndə Madriddə bu gözəl futbol yarışmasının əslində futboldan başqa hər şeyə oxşadığına sadəcə heyrət edirsən və bir daha dönüb Bakıdakı futbol finalına nəzər yetirirsən. Belə müqayisə aparan tək biz deyilik.**

# Avropa futbol oynamağı, Azərbaycan isə ona ümumi futbol mədəniyyətini öyrətdi - Bakı ləzzətindən Madrid rüsvayçılığınadək...



Dünya, o cümlədən Avropa mediasına - qəzetlərə, saytlara, televiziya və radiolara, sosial şəbəkələrə baxanda Madriddə hansı dəhşətlərin yaşandığına bir daha əmin olursan. Bakıdakı finaldan qabaq Azərbaycana hansı böhtanların atıldığını hələ unutmamışıq. Bir qeyri-məhsuldar erməni futbolçunun xatirinə, guya Bakıda baş verəcək dəhşətli hadisələr barədə elə fantaziyalar uydurmuşdular ki, az qala Bakıda özümüz bundan xoflanaraq, "bəlkə həmin gün küçələrə heç çıxmayaq" kimi tərəddüdlərə düşənlər olmuşdu. Bakıda olacağı deyilən dəhşətli mənzərələr Avropanın öz mərkəzində -İspaniyanın Madrid şəhərində yaşandı. Döyülənlər, vurulanlar, tutulanlar, əzilənlər, dələduzların qurbanı olanlar, biletini oğurladanlar, lüt soyunub meydançaya atılanlar, polisi döyüb şil-küt edənlər... daha nələr, nələr. Allah eləməsin, bunların yüzdən biri Bakıdakı futbol finalında baş versəydi, indi ingilis mediası Azərbaycanı "yaş yuyub, fransız şəritində quru asmışdı".

BBC.com yazır ki, polis Madriddə çoxlu sayda saxta bilet satanları həbs edib.

CNN.com isə yazır ki, Madriddə hotel və hostel qiymətləri o qədər baha olub ki, azarkeşlərin çoxu ətraflarda ev kirələyib və gecə futbola baxmağa gedib.

Matchtv.ru-nun yazdıqları UEFA-nın özünün nə qədər rüsvayçı duruma düşdüyünü göstərir. Yazır ki, UEFA saxta biletlərdən o qədər narahat olub ki, saxta biletlə gələnləri oyuna buraxmayacağını deyib.

BBC.com etiraf edib ki, 4 ingilis fanatı polisi təhqir etdiyi üçün həbs edilib və buna görə də çoxlu sayda ingilis azarkeş oyuna baxmadan geri qayıdıb. Hələ bunlar harasıdır...

CNN.com minlərlə azarkeşin Madriddə axışdığını, lakin onlar üçün bilet tapmağın dəhşətli dərəcədə çətin olduğunu açıq etiraf edib. Sayt yazır ki, finalda oynayacaq "Liverpul" və "Tottenhem"in hər biri üçün 17 min bilet ayrılıb, artıq biletlər "qara bazar"da fırladılır, qiymət də ki, 10 mindən 31 min dolladək. Təsəvvür edirsinizmi, bir bilet 31 min dollara… CNN yenə davam edir ki, Madridə gəlib çıxmaq bir çoxları üçün 12 saata başa gəlir və 9 min dolaradək xərc aparır. Dəhşət deyilmi?

Standard.co.uk yazır ki, həbs olunan 4 azarkeş polis zorakılığından şikayət edib. BBC-nin xəbərinə görə, "Tottenhem"in 200 fanatının uçduğu təyyarə quşla toqquşaraq zədələndiyi üçün məcburi eniş edib və azarkeşlər oyuna çata bilməyib.

News.sportbox.ru-nun yazdığına görə, "Liverpul" biletlərin iki komandanın azarkeşləri arasında bölgüsündən narazılıq edib.

Segodnya.ua-nın məqalə başlığına baxın - Kiyevdən şikayətlənirdiniz, Madridə baxın - azarkeşlər nəqliyyat xərclərindən şoka düşüb...

RİA.ru isə yazıb ki, turistlər Madriddə otellərə üçqat baha məbləğ ödəməyə məcbur olurlar.

lol.co.za saytı da oxşar mənzərələrdən bolluca yazıb - saxta biletlər, toqquşmada həbs olunanlar və sair.

Espn.co.uk saytı yazıb ki, azarkeşlər biletlərin bahalığından UEFA-ya şikayət edib.

Bir biabırçılığı isə okeanın o tərəfindən hətta washingtonpost.com da görüb - oyunun 18-ci dəqiqəsində bir lüt qızın meydançaya girməsi və oyunda fasilə yaratması...

İrismirror.ie saytı isə yazıb ki, ingilis azarkeş italiyalı turistə həqarət etdiyi üçün həbs edilib, polis 50 azarkeşə kobudluq etdiyi üçün qarşıdurma yaranıb.

Sosial şəbəkə istifadəçisi @.madcam-ın yazdığı - sevimli komandanıza azarkeşlik edə bilərsiniz, ancaq metronu belə zibil içində buraxmaq olmaz.

Footboom.com isə başlığı belə atıb - Madriddə Çempionlar Liqası - qiymətlər şoka salanda...

Sosial şəbəkə istifadəçisi @meninBlazers isə yazdıqları ilə sadəcə "gül vurub" - Bizi bağışla Bakı, sənə güldük. Sən burda gördüklərimizdən daha yaxşı imişsən.

İspaniyanın "Elmundo" qəzeti yazır - Madridin küçələri minlərlə biletsiz azarkeşlə doludur. Qeyri-etik hərəkətlər edən ingilis azarkeş 3 polisə xəsarət yetirib. "Liverpul"un sahibinin və əfsanələri Kenni Dalqlişlə İan Raşın tıxaca görə öz maşınlarından düşərək meydançaya piyada getdiklərini isə irismirror.ie saytı yazıb.

Talksport.com bir fanatın başqa birinin biletini oğurlayarkən həbs edildiyini yazıb.

İndi müqayisə aparaq. Bakıda bu saysız növlərdən olan qayda pozuntusu və hətta cinayətlərin birinə rast gəldinizmi? Avropa bizə futbolu, biz onlara futbola baxmaq mədəniyyəti öyrədirik...

***Tahir TAĞIYEV***

# Əsgər Melkonyan qondarma "DQR" "ordusu"nda İrəvan və Qarabağ klanları arasında intriqanın qurbanı oldu - ölümü Azərbaycanın üstünə atmağın perspektivsizliyi...

**Ermənistanın eks-prezidenti Robert Köçəryan həbsdən azad edildikdən sonra ölkədə iki klan arasında intriqa daha da kəskinləşməkdədir. Bu kontekstdə fəallığını artıran "Qarabağ klanı" bütün vasitələrdən istifadə edərək Paşinyan hakimiyyətini zəiflətməyə çalışır.**



*"Bu bir daha Ermənistanın necə terrorçu bir dövlət olduğunu açıq-aşkar ortaya qoyur"*

***Vüqar Rəhimzadə:** "İstisna deyil ki, baş verən hadisə bilavasitə klanlararası çəkişmənin nəticəsidir"*

Məlum olduğu kimi, sözügedən klan əsasən Dağlıq Qarabağdakı qondarma separatçı qurumda böyük təsir imkanlarına malikdir. Zaman-zaman danışıqların müxtəlif mərhələsində cəbhə bölgəsində təxribat törədərək danışıqları pozublar.

O da məlumdur ki, iyunun 1-də işğal olunmuş Dağlıq Qarabağda Ermənistan ordusunun hərbçisi, 19 yaşlı Sipan Melkonyan öldürülüb. Proseslərin təhlili göstərir ki, erməni hərbçisinin öldürülməsi iki klan arasında intriqanın nəticəsidir. Belə ki, erməni hərbçisini öldürüb günahı Azərbaycan tərəfinin üstünə atmaq istəyirlər.

Məsələ ondadır ki, Ermənistan silahlı qüvvələrinin bölmələri mayın 30-da cəbhə xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədiblər. Nəticədə ATƏT-in Minsk Qrupu həmsədrlərinin ölkəmizdə səfərdə olduğu bir vaxtda cəbhənin Ağdam rayonu istiqamətində ordumuzun hərbi qulluqçusu Omarov Aqil Akif oğlu şəhid olub. Həmsədrlərin Azərbaycanda səfərdə olduğu bir vaxtda ermənilərin belə bir təxribat törətməsi Ermənistan tərəfini danışıqlarda pis vəziyyətdə qoyub. Ona görə də əsaslı gümanlar var ki, 19 yaşlı erməni əsgərini məhz onlar özləri öldürüblər.

O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə sözügedən ehtimalları istisna etmədi.** Onun fikrincə, Ermənistanda klanlararası hesablaşma kəskinləşdikcə, onlar müxtəlif təxribat vasitələrinə əl atırlar: "Bu baxımdan çox güman ki, erməni əsgəri klanlararası savaş nəticəsində qətlə yetirilib. Nəzərə almaq lazımdır ki, "Qarabağ klanı"nın işğal olunmuş Azərbaycan ərazilərində erməni ordusuna təsir vasitələri böyükdür. Ermənistanda bir ildir hakimiyyət dəyişsə də, Dağlıq Qarabağdakı separatçı qüvvələr Paşinyanla hesablaşmırlar. Bir məqamı nəzərə almaq lazımdır ki, Paşinyan hakimiyyətə gəldikdən sonra Ermənistandakı klanlararası intriqalar açıq müstəviyə keçib. Ermənistanda, bir növ, hakimiyyətsizlikdir. Paşinyan bu günlərdə ictimaiyyəti məhkəmələrə qarşı çağırdı. Görünən odur ki, şəxsi və qrup maraqları hər şeydən önə keçib. Klanlararası mübarizə kəskinləşdiyi üçün, onlar bir-birinə qarşı müxtəlif təxribat vasitələrinə əl atırlar. O üzdən, istisna deyil ki, baş verən hadisə bilavasitə klanlararası çəkişmənin nəticəsidir. Bu bir daha Ermənistanın necə terrorçu bir dövlət olduğunu açıq-aşkar ortaya qoyur, ölkədə cinayətkar qrupların hakimiyyəti idarə etdiyini göstərir.

**Hakimiyyətdən gedən "Qarabağ klanı" daha böyük cinayətkar xislətə malik idi. Çünki terrorçuluqla ad çıxaran səhra komandirləri Qarabağ dalğasında hakimiyyətə gəldikləri üçün, onlara adam öldürmək adi bir şeydir. Ona görə də düşünürəm ki, baş verənlər klanlararası intriqanın nəticəsidir. Həmişə olduğu kimi, bu dəfə də Azərbaycanı günahkar çıxarmaq istəyirlər, amma bu baş tutmayacaq".**

***Vidadi ORDAHALLI***

# ABŞ bankında yüzlərlə erməni qrupunun maliyyə fırıldağı - mənimsənilmiş milyonlar...

**ABŞ-ın Los-Anceles şəhərinin polisi 9 ermənini bank fırıldağına görə həbs edib. Bu barədə ABŞ-ın Mühacirət və Gömrük Xidmətinin saytında məlumat dərc edilib. Hüquq-mühafizə orqanları tərəfindən irəli sürülən ittihamnamədə qeyd edilir ki, müttəhimlər başqa bank hesablarına qəbzləri yazmaq üçün dəyişdirilmiş pasportlarda göstərilmiş saxta adlarla açılmış bank hesablarından istifadə ediblər.**




Beləliklə, fırıldaqçılar "Bank of America"da 1,5 milyon dollardan çox pulu mənimsəmək üçün 331 erməni pasportundan istifadə ediblər. Cinayət faktı ilə bağlı 48 yaşlı Ara Malhasyan, 38 yaşlı Smbat Xeçumyan, 45 yaşlı Sveta Xeçumyan (Smbatın bacısı və Malhasyanın arvadı), 30 yaşlı Arutyun Petrosyan, 34 yaşlı Artur Arutunyan, 38 yaşlı Xaçatur Çobanyan, 49 yaşlı Civan Ahnazaryan və 37 yaşlı Arman Qriqoryan həbs ediliblər. Cinayət qruplaşmanın daha bir iştirakçısı - 29 yaşlı Artak Ohoyan hüquq-mühafizə orqanlarına könüllü təslim olub.

Doqquz fırıldaqçının hər biri bank fırıldaqları məqsədilə cinayət işbirliyində ittiham edilir. Onları 30 il həbsxana cəzası gözləyir. Qeyd edək ki, bu, ermənilərin ABŞ-dakı ilk fırıldaqçı cinayəti deyil. Ermənilərin xarici ölkələrdəki mütəşəkkil cinayətkar fəaliyyətinə daha çox üstünlük verməsi nəyin əlaməti sayıla bilər?

Əslində, burada təəccüblü nəsə yoxdur. Çünki son illər ərzində ermənilərin dünya miqyasında ən qatı cinayətkar qruplar yaratması adi hal alıb. Bunun bir sıra səbəbləri var. Əvvəla Ermənistan hakimiyyətlərinin hamısı mahiyyət etibarilə cinayətə meylli olur və həmin elementlərə birbaşa dəstək verir. Bir müddət əvvəl Avropada və xüsusən də Almaniyada erməni kriminal qrupları ifşa edildi. Almaniyanın nüfuzlu qəzetləri yazdılar ki, həmin qrupların Ermənistan səfirliyi və İrəvandakı rəsmi dairələrlə sıx əlaqələri var. Hətta beynəlxalq səviyyədə aparılan araşdırmalardan məlum olmuşdu ki, bir neçə tanınmış erməni "qanuni oğrusu"na diplomatik pasportu şəxsən sabiq prezident Sarkisyanın özü verib. Ötən il Almaniya hüquq-mühafizə orqanları "erməni mafiyası"nın üzvü olmaqda şübhəli bilinən 42 nəfərə qarşı 14 istintaq işi başladıb. Erməni cinayətkarlar "çirkli pulların yuyulması"nda, zorakılıqda, saxtakarlıqda şübhəli bilinirdilər.

Ümumiyyətlə, son illər Avropada hökmranlıq edən erməni mafiyası və ona bağlı olan ayrı-ayrı kiçik qruplaşmaların "qoca qitə"nin təhlükəsizlik orqanları tərəfindən ifşa edilməsinin şahidi oluruq. Maraqlıdır ki, uzun illər boyunca Avropanın və ABŞ-ın bir çox yerində mafiya sistemi qurmağı bacaran, strukturlaşan ermənilər məhz indi Avropa ölkələri və ABŞ-ın diqqətini çəkməyə başlayıb.

Məlumdur ki, ermənilər yaşadıqları bütün dövlətlərdə özlərinə məxsus cinayətkar şəbəkələr quraraq, müxtəlif kriminal əməllərlə məşğul olurlar. Əlbəttə ki, qanunsuz yollarla əldə etdikləri maliyyəni də bir çox hallarda yaşadıqları ölkənin siyasi liderlərini, media nümayəndələrini, parlament üzvlərini və iş adamlarını ələ almağa yönəldirlər. Bu mənada erməni lobbisinin arxasında elə dolayısı ilə mövcud olduqları ölkələrdəki erməni mafiyası durur. Hətta Almaniyanın MDR televiziyası mövzunu yenidən gündəmə gətirərək "Almaniyada xaç ataları: erməni mafiyası və qanuni oğrular" adlı sənədli filmdə erməni mafiyasını ifşa edib. Maraqlıdır ki, həmin sənədli film Ermənistanın Almaniyadakı səfirliyinin təzyiqlərilə, məhkəmənin qərarı ilə efirə getmədi.

**Bütün bu faktlar onu deməyə əsas verir ki, ermənilər bir millət olaraq terrora, cinayətə meyllidirlər. ABŞ-da isə Ermənistanın siyasi dairələri, diasporu ilə əlaqəli olan həmin beynəlxalq cinayətkar şəbəkənin yalnız bir həlqəsi ifşa edilib.**

***Məhəmmədəli QƏRİBLİ***

# Mxitaryan uğursuzluğundan sonra erməni lobbisinin Azərbaycana qarşı "UNESCO antikampaniyası" başlayır...

**Məlum olduğu kimi, Bakıda keçirilən Avropa Liqasının finalı çox uğurlu alındı. Baxmayaraq ki, Ermənistan mətbuatı və erməni diasporunun təsir dairəsində olan bəzi xarici mətbuat orqanları oyundan əvvəl olmazın böhtanlar yazdılar.**




*"UNESCO-nun Bakıda keçiriləcək sessiyası ilə bağlı ermənilərin apardıqları antitəbliğat uğursuzluğa uğrayacaq"*

## *Seyid Camal Əzimbəyli: "Yaxşı olardı ki, ermənilər digər xalqlara aid olan mədəni irsə qarşı törətdikləri vəhşiliklər barədə danışsınlar"*

"Arsenal"ın erməni yarımmüdafiəçisi Henrix Mxitaryan "təhlükəsizliyim təmin olunmayacaq" deyərək Bakıya, Avroliqanın final matçına qatılmaqdan boyun qaçırdı. Halbuki, əvvəl Azərbaycanın hakimiyyət dairələri, sonra da UEFA onun təşvişinin tamamilə yersiz, əsassız və mənasız olduğunu bəyan etdilər. Erməni mətbuatı bunun ətrafında şou yaradaraq var gücü ilə Avroliqanın finalına kölgə salmağa çalışdı. Ancaq onların bu yöndə apardıqları çirkin kampaniya fiaskoya uğradı.

Bu ilin 30 iyun-10 iyul tarixlərində Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. Sözügedən tədbirdə dünya irsinin qorunması məsələləri müzakirə olunacaq. İndi də erməni mətbuatı sözügedən tədbirin Bakıda keçirilməsinə qarşı çirkin kampaniya aparmağa başlayıb. Azərbaycana böhtan ataraq iddia edirlər ki, guya UNESCO erməni mədəniyyəti irsini sistematik şəkildə məhv edən bir ölkədə belə bir tədbir keçirir və bu düzgün deyil. Bununla yanaşı, erməni mətbuatının uydurmasına görə, Azərbaycanda erməni abidələri məhv edilib. İddia edilir ki, sözügedən "məqamlar" nəzərə alınmadığına görə guya keçiriləcək tədbir uğursuz olacaq. Ona görə də UNESCO bunları nəzərə alıb tədbiri Bakıda keçirməməlidir.

Göründüyü kimi, indi də ermənilər UNESCO-nun Bakıda keçiriləcək sessiyasını qaralamağa çalışırlar. Şübhəsiz ki, onların bu cəhdi də uğursuz olacaq.

Maraqlıdır, bəs ekspertlərin sözügedən məsələ ilə bağlı fikirləri nədən ibarətdir?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, ermənilərin mədəni irs təəssübü çəkməyə heç bir haqqı yoxdur: "Ermənilərin bununla bağlı nə siyasi, nə də mənəvi haqları yoxdur. Ona görə ki, ermənilər qədər digər xalqların mədəni irsinə düşmən kəsilən, onlara aid olan mədəni irsi öz adına çıxarıb saxtalaşdıran millət yoxdur. Bununla bağlı kifayət qədər fakt var. Hansı erməni abidələrinin dağıdılmasından söhbət gedə bilər ki, belə bir abidə, demək olar, Azərbaycanda yoxdur. Alban abidələrini ermənilər zaman-zaman öz adlarına çıxmağa çalışırlar. UNESCO Azərbaycan hakimiyyətinin ölkədəki bütün mədəni irsə necə yüksək səviyyədə qayğı ilə yanaşdığını yaxşı bilir. Müxtəlif səmavi dinlərə aid dini komplekslər dövlət vəsaiti hesabına əsaslı təmir olunub. Bir sıra tarixi abidələrin bərpası və qorunması ilə bağlı sistemli işlər görülür. Yaxşı olardı ki, ermənilər digər xalqlara aid olan mədəni irsə qarşı törətdikləri vəhşiliklər barədə danışsınlar. İndiki Ermənistanda Azərbaycana aid olan mədəni irsi yox ediblər. Çoxsaylı abidə məhv edilib. Eyn zamanda, işğal etdikləri Dağlıq Qarabağ və ətraf rayonlarda Azərbaycana aid olan bütün mədəni irs nümunələri dağıdılıb. Elə abidələr var ki, onları saxtakarcasına ermənin adına yazırlar. Budur mövcud reallıq. Ona görə də hesab edirəm ki, UNESCO-nun Bakıda keçiriləcək sessiyası ilə bağlı ermənilərin apardıqları antitəbliğat uğursuzluğa uğrayacaq. Necə ki, Avroliqa ilə bağlı uğursuzluğa uğradılar. Bu dəfə də bənzər vəziyyətlə üzləşəcəklər".

***Vidadi ORDAHALLI***

# Ermənistan Kəlbəcərdə qanunsuz kurort zonası yaradır...

**Ermənilər işğal altında saxladıqları Azərbaycan ərazilərində qanunsuz işlər görməkdə davam edirlər. İndiyə qədər həmin ərazilərdə ermənilər bir sıra zavodlar qurub, istirahət mərkəzləri açıblar. Eyni zamanda da onlar Azərbaycanın təbii sərvətlərini talan edərək o məhsulları xarici ölkə bazarlarına çıxarmağa cəhd edirlər.**



*"Ölkəmiz beynəlxalq qurumlar qarşısında məsələ qaldırmalıdır ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qanunsuz istirahət mərkəzləri açır, ora xarici vətəndaşları cəlb edirlər"*

## *Niyaməddin Orduxanlı: "Ermənilər işğal altında saxladıqları Azərbaycan torpaqlarında, əslində, turizmi inkişaf etdirmək niyyəti güdmürlər, onlara..."*

Sirr deyil ki, ermənilər işğal altında saxladıqları Dağlıq Qarabağ və ətraf rayonlarda turizm məkanları, istirahət mərkəzləri yaratmaqla Azərbaycanın dilbər guşələrinə xarici turistlər cəlb edirlər. Ermənilərin bu qanunsuz əməllərinin miqyası günü-gündən artır. Ermənistan mətbuatının yazdığı məlumata görə, ermənilər işğal altında olan Azərbaycan şəhəri Kəlbəcərdə kurort zonası yaradıblar. Ermənilərin qanunsuz olaraq yaratdıqları kurort zonasının açılışında qondarma rejimin saxta rəhbəri Bako Saakyanın da qatıldığı bildirilir.

Ekspertlərin bildirdiyinə görə, Kəlbəcər bir kurort zonası olaraq hələ Sovet dövründən cəlbedici olub. Burada yerləşən İstisu və digər kurort zonaları nəinki Azərbaycanda, hətta keçmiş ittifaqda belə çox populyar olub. Azərbaycanın ayrılmaz parçası olan Kəlbəcərdə bu gün ermənilərin kurort zonası yaratması və istirahət etmək üçün xariciləri bu məkana cəlb etməsi, birmənalı olaraq, qanunsuzdur.

**Ermənilərin yol verdikləri bu qanunsuz hərəkətin bütün beynəlxalq konvensiyalara, beynəlxalq hüquq norma və prinsiplərinə zidd olduğunu deyən Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, politoloq Niyaməddin Orduxanlı hesab edir ki, beynəlxalq qurumlar ermənilərin bu qanunsuz hərəkətlərinin qarşısının alınması istiqamətində konkret addımlar atmalıdırlar.** N.Orduxanlı hesab edir ki, ermənilərin məqsədi Kəlbəcərdə kurort zonası yaratmaqla həm bura daha çox xarici turist cəlb edib pul qazanmaq, həm də bu ərazilərin "ermənilərə məxsus olduğunu" təlqin etməkdir. "Ermənilərin işğal altında saxladıqları Dağlıq Qarabağ və ətraf rayonlarda həyata keçirdikləri bütün işlər qanunsuzdur. Onların Kəlbəcərdə kurort zonası yaratması, bura turistlər cəlb etməsi kimi hallar da heç bir beynəlxalq qanun çərçivəsinə uyğun deyil. Bu kimi hallar beynəlxalq hüququn prinsiplərinə ziddir. Azərbaycan ərazisi olan bu torpaqlar Ermənistan tərəfindən işğal edilib. Orada həyata keçirilənlər heç bir dövlət tərəfindən qəbul edilməyən, tanınmayan qondarma rejimin özfəaliyyətidir. Bunun qarşısı beynəlxalq hüquq müstəvisində alınmalıdır. Qədim Azərbaycan ərazisi olan Kəlbəcərdə ermənilərin bu qanunsuz əməllərinin qarşısı alınmalıdır. Azərbaycan torpaqlarının erməni işğalından qeyd-şərtsiz azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. İşğal edilmiş Azərbaycan torpaqlarında yaradılan qondarma rejim bütün beynəlxalq prinsipləri pozub. Onu da vurğulayım ki, işğal altında olan Azərbaycan torpaqlarına, məqsədindən asılı olmayaraq, hər hansı bir səfərə gedən xarici vətəndaş beynəlxalq qanunları pozur, bu, Azərbaycan qanunlarına ziddir".

N.Orduxanlı hesab edir ki, Kəlbəcərdə ermənilər tərəfindən qanunsuz olaraq yaradılan kurorta gələn hər bir əcnəbi vətəndaş qanunları pozur. Onun sözlərinə görə, işğal altında olan Azərbaycan torpaqlarına qanunsuz səfər edən istənilən kəs Azərbaycan tərəfindən arzuedilməz şəxs elan edilir. "Ermənilər işğal altında saxladıqları Azərbaycan torpaqlarında, əslində, turizmi inkişaf etdirmək niyyəti güdmürlər, onlara öz dırnaqarası respublikalarını tanıtmaq lazımdır.

Məqsədləri budur. Bütövlükdə, bu, qanunlara ziddir. Ölkəmiz beynəlxalq qurumlar qarşısında məsələ qaldırmalıdır ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qanunsuz istirahət mərkəzləri açır, kurort zonası yaradır, ora xarici vətəndaşları cəlb edirlər" - deyə N.Orduxanlı qeyd etdi.

***İradə SARIYEVA***

**Son vaxtlar sabiq nəqliyyat naziri Ziya Məmmədovun düşərgəsində bir hərəkətlənmə hiss edilir. Vəzifədən çıxarılandan sonra öz ata-baba kəndindəki villasında yaşamağa üstünlük verən Ziya Məmmədovun hazırda Bakı ətrafındakı villalarından birində daimi yaşamağa başladığı söylənir.**

# Ziya Məmmədovun tərpənişləri - Trampla əlaqələr kartını kimlər yenidən dövriyyəyə gətirir...



Sabiq nazirin tez-tez Bakıdakı məclislərə qatıldığı və özündən razılıq ifadə edən jestlərinin nəzərə çarpdığı deyilir. Onun qardaşı, Milli Məclisin sabiq deputatı Elton Məmmədov isə Azərbaycan Texniki Universitetində prorektor təyin olunub.

Bu barədə ATU-nun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nicat Abdullayev məlumat yayıb.

O bildirib ki, təhsil nazirinin əmri ilə Elton Məmmədov Azərbaycan Texniki Universitetində (AzTU) strateji inkişaf üzrə prorektor təyin edilib: "AzTU-nun rektor əvəzi, professor Xalıq Yahudov universitetdə yeni təsis edilən strateji inkişaf üzrə prorektor vəzifəsinə təyin olunan Elton Məmmədovu kollektivə təqdim edib".

Bundan əlavə, atasının vəzifədə olduğu və ondan sonrakı dönəmlərdə adı müxtəlif maliyyə qalmaqallarında hallanan Ziya Məmmədovun oğlu Anar Məmmədovun da fəallaşması nəzərə çarpır. A.Məmmədovun Bakıda olmasına dair mesajı ilk olaraq elə özü verib. O, paytaxtda keçirilən "Arsenal"-"Çelsi" oyunundan özünün "İnstagram" səhifəsində video paylaşıb. Sonra məlum olub ki, A.Məmmədov Bakıya qayıtmaqla yanaşı, həm də keçmiş şərikləri ilə haqq-hesab çürütməyi də planlaşdırır. Onun vəkili mediaya açıqlamasında bu yöndə məhkəmə çəkişmələrinin ola biləcəyini istisna etməyib.

Əgər buna qədər A.Məmmədovun ölkəyə qayıdışının mümkün olmayacağı haqda xəbərlər dolaşırdısa, hazırda o, çox iddialı danışmağa başlayıb. Onun adı atasının nazir olan dövrdə ərsəyə gətirdiyi və qısa zaman ərzində "aparıcı" şirkətlərə çevrilən təsisatlarla bağlı məhkəmə işlərində hallanırdı. Z.Məmmədovun qardaşının da adı maliyyə qalmaqallarında çox hallanıb. Mətbuatda gedən məlumatlarda qeyd edilirdi ki, Z.Məmmədov vəzifəsi ilə vidalaşandan sonra Elton Məmmədovun da başını qara buludlar almağa başlayıb. Hətta bildirilirdi ki, E.Məmmədov bir vaxtlar "Avtovağzal" kompleksində fəaliyyət göstərən ticarət obyektlərinə nəzarəti də itirmişdi.

Z.Məmmədovun ətrafı ABŞ Prezidenti Donald Tramp faktorundan ciddi yararlanmaq istəyib. Xüsusilə də Tramp prezident seçiləndən sonra vaxtilə Məmmədovların kurasiyasında olan saytlar dövriyyəyə ABŞ Prezidenti ilə A.Məmmədovun yaxın dost olması ilə bağlı məlumatlar buraxdılar. Hətta qeyd edilirdi ki, "Amerika-Azərbaycan" Alyansının sədri A.Məmmədov ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Trampın innaqurasiya mərasiminə dəvət olunub. A.Məmmədov Bakının Xətai rayonu ərazisində yerləşən "Tramp" adlı böyük bir plaza da inşa etdirib.

Belə söhbətlər yayılmışdı ki, Məmmədovlar Bakıdakı "Yelkən-hotel"i (əvvəlki adı "Trump Tower Baku") Türkiyədən olan bir iş adamına satıblar. Yelkən formasında tikilən bina 72 apartament və 189 otel otağından ibarətdir. Sahələri 84-890 kvadratmetrədək dəyişən 70-dən çox apartamentin uzunmüddətli icarəyə verilməsi nəzərdə tutulurdu. Lakin hazırda həmin oteldəki son kosmetik işlərin Məmmədovlar tərəfindən aparıldığı deyilir. Maraqlıdır ki, Məmmədovlar dar çərçivədə bu cür reabilitasiya olunmalarını yenidən Tramp faktoru ilə bağlamağa çalışırlar. Belə təəssürat yaratmaq istəyirlər ki, sanki bunların yenidən aktivləşməsində Trampın rolu böyük olub. Ancaq unutmaq lazım deyil ki, bəzən ölkədəki humanizmdən bəhrələnməyi bacaran sabiqlərin belə sağ-sol gedişlərinin ən böyük ziyanı elə özlərinə dəyə bilər...

*Məhəmmədəli QƏRİBLİ*

**Məlumdur ki, Azərbaycanda proporsional üsulla deputat seçilmək mümkün deyil. Yəni qanunvericilik buna imkan vermir. Deputatlar fərdi qaydada namizədliklərini irəli sürüb, öz alternativləri ilə yarışıb estafeti qazanmalıdırlar. Bu da deputat seçilən şəxslə ona səs verən ərazidəki vətəndaşların fərdi ünsiyyətini zəruri edir.**

# Rayonların ictimai həyatında müvafiq deputatların passiv iştirakına ciddi narazılıqlar var...

## Elşən Həsənov: *"Danışa bilməyən, mediadan qaçan və ən əsası da xeyrə-şərə yaramayan adamın yeri qətiyyən parlament ola bilməz"*




Məhz həmin seçkiqabağı kampaniyaların gedişi zamanı namizədlər seçilmək üçün əhaliyə çoxlu vəd verirlər. Bir çox rayondan edilən şikayətlərin məzmunundan, eləcə də əhali arasında gəzən söhbətlərdən məlum olur ki, seçilən millət vəkillərinin heç də hamısı vədlərinə sadiq olmur. Bu bir tərəfə, hətta elə millət vəkilləri var ki, seçildikləri rayonun, ərazinin mədəni-kütləvi tədbirlərində belə yaxından iştirak etmirlər. Yəni mandatı qazanıb, deputat nişanını döşünə taxandan sonra seçildikləri ərazi ilə "vidalaşmalı" olurlar.

Son vaxtlar millət vəkillərindən edilən ən böyük narazılıqlardan biri də onların ərazidə olan şəhid dəfnlərində iştirak etməməsidir. Hesab edirik ki, bu, daha çox onların qanuni və mənəvi borcudur. Seçildikləri ərazidəki proseslərdə yaxından iştirak etməmək deputatların indiki və gələcək imici, karyerası üçün nə vəd edir?

**Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə bildirdi ki, deyilən istiqamətdə vəziyyət olduqca acınacaqlıdır:** "Mənim özüm də seçkilərdə namizəd olmuşam. Hətta prezident seçkilərində iştirak etmişəm. Bu sahədə olan vəziyyətə yaxşı bələdəm. Əksər rayonlardakı seçicilər öz deputatlarını əllərində çıraqla axtarırlar. Elə dairələr var ki, millət vəkili oradan dalbadal bir neçə dəfə seçilib. Seçicilər deyirlər ki, biz həmin adamın sifətini beş ildə bir dəfə, yalnız seçkidən-seçkiyə görə bilirik. Bəla burasındadır ki, elə deputatların heç səsini də biz eşitmirik. Təsəvvür edin ki, parlamentin əksər deputatlarının adını cəmiyyətə təqdim edəndə heyrət adamı bürüyür və haqlı olaraq belə bir sual ortaya çıxır: yəni belə deputat da var. Gəlin etiraf edək ki, çox az sayda deputat var ki, onlar mediatikdir, tez-tez jurnalistlərin suallarını cavablandırır, sosial şəbəkələrdə öz adları ilə aktivlik nümayiş etdirirlər. Başa düşürük, deputatlarımızın çoxu bu cür fəaliyyətdən yayınmağa üstünlük verir. Bəziləri danışa bilmir, bir çoxu isə hesab edir ki, gizlənmək gözə girməkdən daha optimal variantdır. Bunları başa düşdük. Bəs maraqlıdır, deputatın rayondakı tədbirlərdə iştirak etməsi, xalqın içində olması ilə bağlı nə problem var? Hətta vəziyyət o həddə çatıb ki, bəzi millət vəkilləri seçildikləri ərazidən olan şəhidlərin hüzr mərasimləri, onların dəfnlərində belə iştirak etməkdən yayınırlar. Bu cür fəaliyyət onların nüfuzuna ciddi zərbə vurur. Gələcək talelərinə gəldikdə isə, beləleri bir də deputat ola bilməyəcək. Təhlillərim onu deməyə əsas verir ki, növbəti parlamentin tərkibində biz çox fərqli simaları və aktiv insanları görəcəyik. Ölkədəki islahatların gedişi bunu diqtə edir.

Danışa bilməyən, mediadan qaçan və ən əsası da xeyrə-şərə yaramayan adamın yeri qətiyyən parlament ola bilməz. Bu cür fəaliyyət həm də günahdır. Axı düşünsünlər ki, onların yerinə başqası olsaydı, yenə kimlərinsə dərdinə əlac ola bilərdi".

*Məhəmmədəli QƏRİBLİ*

# Avropanın enerji təhlükəsizliyində Azərbaycan-Türkiyə tandeminin alternativsizliyi - Avrokomissiyanın yeni hesabatı...

**Avropanın təbii qaz tələbinin ödənilməsində Azərbaycanın artan rolu Qərbdə ölkəmizə diqqəti daha da artırır. Belə görünür ki, Avropa qarşıdakı dövr ərzində enerji təhlükəsizliyinin önəmli bir hissəsini artıq Azərbaycanla bağlamaq qərarına gəlib. Bu hal "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması fonunda özünü daha qabarıq surətdə büruzə verir.**




ABŞ-ın dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdon da vurğulayır ki, "Cənub Qaz Dəhlizi" layihəsi enerji təhlükəsizliyi və Balkan ölkələrinin enerji təminatı baxımından mühüm rol oynayır. O, layihənin icra vəziyyətini yüksək qiymətləndirib.

ABŞ rəsmisi bu günlərdə təməli qoyulan Bolqarıstan-Yunanıstan İnterkonnektorunu "Cənub Qaz Dəhlizi"ndə irəli doğru atıdan daha bir mühüm addım kimi qeyd edir. O, gələcəkdə dəhlizi qidalandıracaq əlavə mənbələr kimi işlənmədə olan yataqlar və onların ehtiyatlarının da mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır. Proseslərin bu səpkidə inkişafından məmnunluq duyan əsas tərəflərdən biri isə ölkəmizin strtateji müttəfiqi sayılan qardaş Türkiyədir. Belə görünür ki, Azərbaycan sayəsində Türkiyə Avropa üçün daha mühüm enerji mərkəzlərindən birinə çevrilir. Bunu Avropa Komissiyasının "Türkiyə 2019" adlı hesabatında da aydın şəkildə sezmək olar. Hesabatda qeyd edilir ki, "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP təbii qaz boru kəməri layihəsinin birinci fazasının yekunlaşması ilə Türkiyənin regional və Avropa İttifaqı hüdudlarında enerji təhlükəsizliyinin güclənməsindəki rolu artıb.

Bununla yanaşı, hesabatda TANAP-ın ilkin fazasının keçən ilin iyununda yekunlaşdığı qeyd edilir. Bildirilir ki, bu ilin iyununda TANAP-ın ikinci fazasının, yeni qazı TAP üzərindən Avropaya nəql edəcək mərhələnin tamamlanması planlaşdırılır. Qeyd edək ki, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin seqmentini təşkil edən TANAP keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə, planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. Türkiyə bu vaxtadək TANAP-la 1,9 milyard kubmetr Azərbaycan təbii qazı alıb. İyunun sonunadək bu həcm 2 milyard kubmetr, cari ilin axırına kimi isə 4 milyard kubmetrə çatacaq. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin 99 faizi başa çatıb. Boru kəməri bu il "Trans-adriatik" (TAP) qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. Avropa Komissiyasının ortaq maraqlara xidmət edən 33 prioritet enerji təhlükəsizliyi layihəsi siyahısına daxil olunan TAP üzrə işlərin 87,5 faizi tamamlanıb. Bu boru kəməri "Şahdəniz-2" yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Bütün bunlar üçün ilkin mənbə qismində Azərbaycan qazı çıxış edir. Qazın Avropaya daşındığı əsas tranzit məkanlardan biri isə məhz Türkiyədir. Yəni yaranmış şəraitdə Türkiyənin enerji mərkəzinə çevrilməsinə Azərbaycanın verdiyi töhfələr artır. Azərbaycandan və digər mənbələrdən daxil olan karbohidrogen məhsulları hesabına ölkə enerji mərkəzinə çevrilir.

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönmez isə qeyd edir ki, son illərdə daha çox Azərbaycandan Türkiyə istiqamətində enerji xətləri çəkilib.

Nazir bildirib ki, TANAP boru kəməri Türkiyənin enerji mərkəzinə çevrilmə yolunda güclü və etibarlı addımlarla irəlilədiyinin bariz nümunəsidir: "Türkiyənin qaz alıcıları və satıcılarının qovuşduğu, qiymətin təyin edildiyi və bazar münasibətlərinin formalaşdığı enerji mərkəzinə çevrilməsi üçün işlər görülür. Bu çərçivədə istismara verilən TANAP boru kəməri güclü və etibarlı addımlarla irəlilədiyimizin bariz nümunəsidir. Təbii qazın satış bazarı olan və regional tələbatın ödənilməsinə də imkan verən infrastrukturla Türkiyə təbii qaz ticarətində söz sahibi ölkələrdən biri olacaq". İndi Türkiyə üçün mühüm məsələlərdən biri də Azərbaycan üzərindən Türkmənistan qazının alınmasıdır. Enerji daşıyıcılarının dünya bazarlarına tədarükünün yeni marşrutları elə Türkmənistan üçün də prioritet məsələlərdən biridir. Aşqabad bu fonda Türkiyə, Avropa bazarlarına da mavi yanacaq nəqlini nəzərdən keçirir. Bu məqsədlə Avropa Komissiyası, Azərbaycan, Türkiyə və Gürcüstanla "Transxəzər" qaz kəmərinin tikintisi və türkmən qazının "Cənub Qaz Dəhlizi" ilə Avropa ölkələrinə göndərilməsi üzrə danışıqlar aparılır.

**Hazırda "Transxəzər"in çəkilişi ilə qardaş Türkiyə, eləcə də Avropa Türkmənistanın "Cənub Qaz Dəhlizi" layihəsində əsas iştirakçılardan biri olmasını istəyir. Azərbaycan isə bu prosesə lazımi töhfəsini verməyə hazır olduğunu hər zaman ən yüksək səviyyədə bəyan edib.**

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın status-kvonu uzatmaq cəhdi savaşı qaçılmaz hala gətirdi - Azərbaycan BMT baş katibinə müraciət etdi

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olduğunu bəyan edən Azərbaycan problemin bu səpkidə çözümünü tapması üçün artıq işğalçı Ermənistanın əməli addımlar atmasının zəruri olduğunu dəfələrlə bəyan edib. Əks təqdirdə Bakı hadisələrin başqa məcrada inkişafına görə də məsuliyyətin məhz İrəvanın üzərində olduğunu diqqətə çatdırıb.**

İndilikdə isə Azərbaycanın əsas istəyi Ermənistanın kofnliktin çözümünə xidmət edən real addımlar atmasıdır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona son səfəri və bu zaman cəbhədə törədilən erməni təxribatı, İrəvanın bu xüsusda nümayiş etdirdiyi mövqeyə münasibətdə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı açıqlamada da bu məqama yenidən xüsusi diqqət çəkilir.

Burada qeyd edilir ki, Ermənistan beynəlxalq ictimaiyyətin tələblərinə uyğun olaraq münaqişənin həllində nəticəyə yönəlik addımlar atmalıdır: "Ermənistan Xarici İşlər Nazirliyinin Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttindəki sonuncu vəziyyətlə bağlı olduqca emosional və bir o qədər ziddiyyətli bəyanatla çıxış etməsinin səbəblərini anlamaq olar. Bu, böyük ehtimalla, Ermənistan rəhbərliyinin hazırda ölkədəki daxili vəziyyətə reaksiyasına uyğundur. Xatırladırıq ki, Ermənistan xarici işlər nazirləri səviyyəsində növbəti görüşə razılıq verib. Reallıqlar isə dəyişilməz olaraq qalır; Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çıxmalıdır. Gələcəkdə Ermənistana kimin rəhbərlik etməsindən asılı olmayaraq, bölgənin gələcək inkişafı üçün digər alternativ mövcud deyil. Ermənistan tərəfi etiraf etməlidir ki, insan itkisinin, fəlakətlərin və qarşılıqlı nifaqın səbəbi, məhz Ermənistanın təcavüzkar siyasəti, Azərbaycan ərazilərini işğal altında saxlaması və bu ərazilərdə yaşayan yerli azərbaycanlıların etnik təmizlənməsi siyasətidir. Ermənistan hər hansı digər uydurma səbəb axtarmağa vaxt sərf etməməli və beynəlxalq ictimaiyyətin də tələblərinə uyğun olaraq münaqişənin həllində nəticəyə yönəlik addımlar atmalıdır".

Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyevin BMT-nin baş katibi Antonio Quterreşə ünvanlanmış məktubunda da, digər məqamlarla yanaşı, əsas diqqət buna yönəlir ki, İrəvanın tezliklə münaqişənin həllində nəticəyə yönəlik addımlar atması vacibdir. Burada qeyd edilir ki, ötən il Ermənistanda hökumətin dəyişməsinə baxmayaraq, bu ölkə əvvəlki kimi regional və beynəlxalq sülhə, təhlükəsizliyə, sabitliyə ciddi təhdiddir və bu, Birləşmiş Millətlər Təşkilatı və bütövlükdə beynəlxalq birlik tərəfindən xüsusi diqqət və təxirəsalınmaz reaksiya tələb edir: "Ermənistan provokasiyalar törətməyə və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu imitasiya etməyə vaxt sərf etməkdənsə, qeyri-sabit status-kvonu uzatmağa yönələn səmərəsiz cəhdlərini dayandırmalı və öz beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirməlidir". Beləliklə, Azərbaycan artıq İrəvanın nəticəsi olan addımlar atmasını istəyir. Bu olmayacağı təqdirdə Bakının güc yolu ilə istəyinə nail olacağı Ermənistana, onun hamilərinə, o cümlədən həmsədr ölkələrə də yaxşı məlumdur. Əslində, proseslərin məhz hərbi müstəvidə inkişafı heç də istisnalıq təşkil etmir. Çünki ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri zamanı erməni snayperi tərəfindən Azərbaycan ordusunun zabiti Aqil Omarovun qətlə yetirilməsi İrəvanın əvvəlki qaydada cəbhə bölgəsində vəziyyəti gərginləşdirmək məqsədi güddüyünü göstərir. İşğalçı ölkənin başlıca məqsədi, Serj Sarksiyan dönəmində olduğu kimi, danışıqlar prosesinə əngəl yaratmaq və 25 ildir davam edən bu münaqişədə mövcud status-kvonu qoruyub saxlamaqdan ibarətdir. Nikol Paşinyan iqtidarının bu addımları bir daha təsdiq edir ki, işğalçı ölkə münaqişənin dinc yolla həllində maraqlı deyil. Bu fonda o da aydındır ki, İrəvanın, o cümlədən Nikol Paşinyanın özünün sülh, atəşkəsə riayət olinması və digər bu kimi iddiaları yalnız beynəlxalq ictimaiyyəti aldatmağa hesablanıb. Amma bir məsələ də dəqiqdir ki, Nikol Paşinyan öz sələflərinin səhvlərini təkrarlamağa davam edəcəksə, bu onun hakimiyyəti üçün çox ciddi problemlərin yaranmasına səbəb olacaq. Ən azı o baxımdan ki, ortada Serj Sarksiyan iqtidarının yaşadığı nümunə var. Məhz Sarksiyanın danışıqlarda hansısa real addımlar atmaması sonda məlum aprel döyüşlərinin başlanmasına gətirib çıxardı. Elə bu da onun iqtidardan devrilməsində vacib rol oynadı. İndinin özündə isə Nikol Paşinyanın eyni səhvləri təkrar etməsi, cəbhə təxribatlarına getməsi sadəcə vəziyyəti gərginləşdirir, genişmiqyaslı savaşın başlanmasına münbit şərait yaradır. Amma burada İrəvan mütləq nəzərə almalıdır ki, işğalçılıq siyasətini davam etdirərək dinc sakinlərə, Azərbaycan hərbçilərinə qarşı törətdiyi cinayətlər cavabsız qalmayacaq və hər belə hala görə daha ağır adekvat cavab alacaq. Bunun üçün Azərbaycanın yetərincə hərbi qüvvəsi var. Faktdır ki, Azərbaycan ordusu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından bölgədə ən güclüdür. Ümumiyyətlə, Azərbaycanda gedən ordu quruculuğu tədbirləri bir daha təsdiqləyir ki, Ermənistanla müharibə başlayacağı təqdirdə, ölkəmizin qələbəsini şərtləndirən kifayət qədər mühüm amillər var. Azərbaycanın getdikcə qüdrətli dövlətə çevrilməsi ilə paralel silahlı qüvvələrin modernləşdirilməsi, ordunun müasir texnika və silahlara təchizi işi aparılır. Bu fakt isə birbaşa olaraq Azərbaycanın milli təhlükəsizliyi, regional risqləri və ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsi ilə əlaqədar olaraq atılan məcburi addımdır. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu isə yuxarıda barəsində bəhs edilən aprel döyüşlərində və Günnüt əməliyyatında qazanılan hərbi uğurlar da aydın şəkildə göstərdi. Bu mənada, indi ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər dövlət müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altındakı torpaqlarımızın azad edilməsinə xidmət edir.

Beynəlxalq ictimaiyyət və ilk növbədə həmsədr ölkələr də artıq bunu nəzərə almalı, Ermənistanın cəbhədə istənilən təxribatını birmənalı şəkildə pisləməlidir. Bölgədə savaşa qarşı olanlar, o cümlədən də ATƏT-in Minsk Qrupunun həmsədrləri Bakı və İrəvan arasında artıq substantiv danışıqların tezliklə başlanmasına nail olmalıdır. Azərbaycanın münaqişənin həlli üzrə substantiv danışıqların tərəfdarıdır. Amma Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi və yürütdüyü destruktiv, təxribatçı siyasət münaqişənin həllinə, regionda sülhün, sabitliyin təmin olunmasına xələl gətirir. Bütün bunların qarşısı məhz substantiv danışıqlarla mümkündür. Qeyd edək ki, substantiv danışıq deyəndə Azərbaycan rəhbərliyi ərazilərimizin qeyd-şərtsiz boşaldılmasına yönəlik danışıqları nəzərdə tutur. Burada Azərbaycanın mövqeyi bəllidir və birmənalı xarakter daşıyır. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır. Xatırladaq ki, ATƏT Minsk Qrupunun həmsədrləri və BMT də dəfələrlə münaqişənin həlli üçün tərəfləri substantiv danışıqlara çağırıb. Amma Ermənistan rəhbərliyi hər dəfə bu mövqedən yayınmağa çalışıb. Çünki substantiv danışıqlar həmsədrlərin belə qeyri-məqbul hesab etdiyi status-kvonun dəyişdirilməsini, yəni işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan qoşunlarının çıxarılması da daxil olmaqla, kompleks tədbirləri ehtiva edir. İrəvanın belə mövqeyi danışıqlar prosesinə xələl gətirir. Halbuki, Ermənistan tərəfinin substantiv danışıqlarda konstruktiv iştirak etməsi münaqişənin həllinə və regionda davamlı sülhün təmin olunmasına xidmət edərdi. Bu mənada hesab edilir ki, indi bütün dünya tərəfindən qəbul olunmayan statis-kvo məhz Ermənistana qarşı ciddi təzyiq nəticəsində dəyişməli, sülh prosesinə və erməni işğalının nəticələrinin aradan qaldırılmasına yolu açmalıdır. Əks təqdirdə bunun alternativi Ermənistanı böyük fəlakətlərə sürüyəcək savaşdır.

Azərbaycan, yuxarıda qeyd olunduğu kimi, müharibə istəmir, əsas niyyəti də dinc yolla ərazilərimizin işğaldan azad olunmasıdır. Amma indiki halda Ermənistan sülhdən qaçır. Dağlıq Qarabağ münaqişəsində indiki status-kvonun dəyişməməsi isə müharibə ehtimalını günbəgün artırır. Münaqişənin indiki durumunu analiz edən müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən ayrı-ayrı ekspertlər Dağlıq Qarabağda müharibənin alovlanma ehtimalının yüksək olduğunu bildirir. Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatların və ekspertlərin fikirləri ilk növbədə işğalçı tərəf, o cümlədən də ATƏT-in Minsk Qrupu üçün həyəcan siqnalı olmalıdır. Çünki ATƏT-in Minsk Qrupu, ən azından, təxribatların qarşısını ala bilər. Amma bu olmasa, savaş qaçılmazdır. Ermənistanın siyasi analitiklərindən biri, politoloq Ayk Martirosyan isə yeni savaşın ölkəsinin lehinə olmadığını vurğulayır. Onun fikrincə, münaqişə zonasında Azərbaycanla Ermənistan arasında hərbi əməliyyatlar bu gedişlə istənilən an başlaya bilər: "Dağlıq Qarabağda müharibənin yenidən alovlanmayacağını düşünənlər, demək olar ki, yoxdur. Çünki indi hər şey müharibəyə aparır, Azərbaycan da müharibəyə əla hazırlaşır. İllərdir ki, bunu deyirəm. 3 il önçəki "dördgünlük müharibə" Azərbaycan üçün test oldu. Müəyyən mənada Azərbaycan bu testdən uğurla çıxdı, müəyyən mənada da problemlərini aşkarlaya bildi. Aprel döyüşlərindən sonra Azərbaycan hərb strategiyasını, texnikasını, yanaşma tərzini təkmilləşdirdi. Onlar savaşa hazırlaşırlar. Ermənistan rəhbərliyi də potensial hərbi əməliyyatlara, müharibəyə hazır olduğunu deyir, amma deyilənlərlə reallıq arasında çox böyük fərqlər var". Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş danışıqlar prosesində Ermənistanın tutduğu mövqe problemin sülh yolu ilə həllini praktiki olaraq mümkünsüz edib. Məhz bu vəziyyətdə beynəlxalq ictimaiyyət prosesə müdaxilə etməsə, savaş qaçılmaz sayılır. Bu zaman Azərbaycanın istəyinə güc yolu ilə asanlıqla nail olacağı heç kimdə şübhə yaratmır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistan siyasətinin "açarları" Moskvaya toplanır - Paşinyan Putinlə məsələni tənzimləyə bilməsə...

**Baş verən son bir neçə hadisə Rusiya və Ermənistan arasında münasibətlərin getdikcə pisləşməsi barədə səslənən fikirlərin həqiqət olduğunu yenidən əyani surətdə təsdiqləməkdədir. Xüsusən də Avrasiya Ali İqtisadi Şurasının iclasının Nur-Sultan şəhərində baş tutan son iclasından sonra baş verənlər Moskva - İrəvan münasibətlərində gərginlik həddinin sürətlə yüksəlməkdə olduğunu əyani surətdə təsdiqləyir.**

Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan Avrasiya Ali İqtisadi Şurasının iclası üçün getdiyi Qazaxıstan səfərini təcili şəkildə yarımçıq qoyaraq Ermənistana qayıdıb. Yayılan məlumatlara əsasən, Nur-Sultanda Rusiya prezidenti Vladimir Putin Paşinyanla görüşmək istəməyib. Bundan əlavə, Qazaxıstanın ilk prezidenti Nursultan Nazarbayev Paşinyandan başqa Avrasiya İqtisadi Birliyinin bütün rəhbərlərinə orden təqdim edib. Paşinyan isə geri qayıdandan sonra SSRİ-nin dağılmasında Nazarbayevin günahı olduğu barədə məzmunsuz açıqlama verib. Baş verənləri şərh edən rus politoloq Vitali Arkovun sözlərinə görə, rəsmi İrəvan artıq ortaya çıxan informasiyalara reaksiya verib. İrəvan Avrasiya Ali İqtisadi Şurasının iclasında Nikol Paşinyanın ordenlə təltif olunmamasını onun dövlətin başında cəmi bir ildir olması, Rusiya və Qazaxıstanın milli liderləri ilə müqayisə təşkilatın fəaliyyətinə verdiyi töhfənin cüzi olması ilə izah edib: "Ümumiyyətlə, Ermənistanın yeni baş naziri və onun formalaşdırdığı kabinetin fəaliyyətinin həm Avrasiya İqtisadi Birliyi, həm KTMT, həm də ümumən postsovet məkanında inteqrasiya proseslərinin dağıdılmasına istiqamətləndiyi haqda güclü təəssürat var. Avrasiya İqtisadi Birliyinin necə çətinliklə yaradıldığını hamımız xatırlayırıq. Elə indi də təşkilatın qarşısında böyük hissəsi xarici təsirlərlə yaranan bir çox problemlər dayanır. Buna görə də layihənin yaradıcı-atası Nursultan Abişeviçin açıq-aşkar onun yaratdıqlarını məhv etmək niyyəti daşıyan gənc (Nazarbayevin yaşı və təcrübəsi ilə müqayisədə) erməni həmkarına münasibətdə hisslərini anlamaq olar". Arkov əmindir ki, Paşinyanın fəaliyyətindən fayda götürənlər bəllidir: "Onun Ermənistanın rəhbəri postunda uzun müddət qalmayacağı da aydındır: ənənəvi dəyərlərin (o cümlədən ailəvi əsasların - Ermənistanda hazırda buna qarşı da fəal iş aparılır) dağıdıcısı kimi istifadə edib, sonra da siyasi boşluğa yollayacaqlar. O bu baxımdan nə ilk, nə də sonuncudur". Nur-Sultanda baş verənlərə qayıdan ekspert İrəvanın Avrasiya Ali İqtisadi Şurasının iclası çərçəvində guya heç Putin-Paşinyan görüşünün planlaşdırılmaması ilə bağlı verdiyi izahatın bir o qədər də inandırıcı olmadığını bildirib: "Bəli, tədbirin formatı ikitərəfli danışıqları nəzərdə tutmur. Ancaq hazırda Moskva ilə İrəvan arasında birinci şəxslərin iştirakı olmadan həlli mümkünsüz olan bir çox problem var. Yəni ki, qısaca olsa da, Paşinyan və Putinin müzakirə edəcəyi mövzular vardı. İrəvanda cari ilin 1 oktyabrında Putini gözləyirlər. Rusiya liderinin, həmçinin, Avrasiya Ali İqtisadi Şurasının iclası çərçivəsində bu səfəri baş tutacaq. Aydındır ki, ev sahibliyi edən tərəfə hörmət mənasında Putin Paşinyanla görüşəcək. Əlbəttə, o vaxta qədər erməni cəmiyyətinin Paşinyanın boş vədlərinə artan narazılığı və həyat səviyyəsinin aşağı enməsi yeni inqilaba gətirib çıxarmasa". Arkovun sözlərinə görə, bu gün Paşinyan ilk növbədə mehriban qonşuluğu öyrənməlidir: "İlk növbədə Azərbaycanla. Sözügedən proses (qarşıdurmadan mehriban qonşuluğa keçid) nə qədər çətin və uzun olsa da, ona başlamaq həyati vacibdir. İkincisi isə "Troya atı" deyil (görülən tədbirlərə əsasən bu gün Ermənistan məhz belədir), həqiqi müttəfiq olmaqdır. Belə olan halda hansı etibardan söhbət gedə bilər?".

Bununla yanaşı, belə fikirlər də səslənir ki, əslində Ermənistanda inqilabı Rusiyanın özü də təşkil edə bilər. Bunun üçün isə Kreml müəyyən gedişlər də etməkdədir. Ermənistanın keçmiş hakimiyyətinin təmsilçilərinin Rusiyada yığışması və Moskvanın onları İrəvana verməkdən imtina etməsi artıq bütün bunların ilkin işartıları sayılır. Bu xüsusda bir sıra şəxslər üzərində daha çox



diqqət cəmləşir. Serj Sarksiyanın sədri olduğu Respublika Partiyasından keçmiş deputat və sabiq müdafiə naziri Mikael Arutyunyan, eləcə də Ədliyyə Nazirliyinin keçmiş xidmət rəisi, Respublika Partiyasından keçmiş deputat Miqran Poqosyan ətrafında baş verənlər bunu sübut edir. Nikol Paşinyan indiki məqamda Rusiyada olan bu şəxsləri Moskvadan ala bilmədiklərini açıq etiraf edir: "Miqran Poqosyan iri həcmdə dövlət əmlakını mənimsəmək və dağıtmaqda, vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə ittiham olunur. Onun barəsində Ermənistanda axtarış elan olunub. Rusiyanın hüquq-mühafizə orqanları onu Kareliyada tutsalar da, Ermənistana verməkdən imtina edirlər". Baş nazir vurğulayıb ki, Aram Arutyunyan iri məbləğdə rüşvət almaqda və qanunsuz yolla əldə etdiyi var-dövlətin leqallaşdırılmasında ittiham olunur: "Məhkəmə qiyabi olaraq onun barəsində həsb qətimkan tədbiri seçib və axtarış elan edib". Paşinyan Rusiyanın keçmiş deputatları Ermənistana ekstradisiya edib-etməyəcəyi ilə bağlı suala cavab verməkdə çətinlik çəkib: "İndi elə bir şərait yaranıb ki, biz öz vətəndaşlarımızı ekstradisiya edə bilmirik". Xatırladaq ki, artıq Miqran Poqosyan Rusiyadan siyasi sığınacaq istəyib. Poqosyanın vəkili, Kareliyanın Vəkillər Palatasının prezidenti Mixail Yamçitski bildirib ki, Poqosyanın bu ölkədən siyasi sığınacaq istəməyə əsası var:

"Siyasi sığınacağın verilməsi haqqında xahiş artıq rəsmən verilib, lazımi qaydada rəsmiləşdirilib. Bununla bağlı qərarı Rusiya Federasiyası Prezidenti yanında Komissiya qəbul edir. Mənim fikrimcə, bunun üçün əsaslar var. Miqran Poqosyanı vətənində siyasi motivlər üzrə təqib edirlər". Mixail Yamçitskinin sözlərinə görə, müdafiə etdiyi şəxsin ekstradisiyası ilə bağlı məsələ Rusiya Baş Prokurorluğunda həll ediləcək. Baş verənləri şərh edən "1in.am" portalı isə yazır ki, Rusiya bu insanlar ətrafında oyunları ilə Ermənistanı cəzalandırmağı düşünür: "Ermənistan mətbuatında belə informasiya yayılıb ki, Miqran Poqosyan haqqında qətimkan tədbiri dəyişdirilib və saxlanılan Poqosyan indi ev dustağıdır. Əvvəllər "Jamanak" qəzeti xəbər verməşdi ki, Moskva Poqosyanın "siyasi sığınacaq" verilməsi barədə etdiyi müraciəti təmin etməyə meyllidir. Miqran Poqosyanla bağlı nə baş verir? O, Rusiyanın hamiliyi ilə erməni ədalət məhkəməsindən qaçan Ermənistanın keçmiş sisteminin üçüncü məmuru olacaqmı?

Məlumdur ki, sabiq müdafiə naziri Mikael Arutyunyan və sübutların məhv edilməsində ittiham edilən "1 mart işi" üzrə istintaq qrupunun sabiq rəhbəri Vaahn Arutyunyan indiyədək orada gizləniblər. Maraqlıdır, Moskva, Rusiyaya gəlib çıxa bilənləri müdafiə etmək haqqında qərarı hansı prinsipə əsasən verir? Yoxsa kimi müdafiə etmək haqda qərar verirsə, onu Rusiyaya gətirir? Və burada, əlbəttə, durumla bağlı iki həlledici an, sual, şərt yaranır. Biri odur ki, bu adamlar öz müdafiələri üçün Rusiyaya "haqq ödəyirlərmi"? Nəticədə, şübhəsizdir ki, burada başlıca problem bu illər ərzində Ermənistanda mənimsənilən resursların geri qaytarılmasıdır.

Əlbəttə, 10 insanın ölümü ilə əlaqədar olan "1 mart işi" ilə bağlı bir istisna var. Öz növbəsində, siyasi "cəngavər" və Ermənistanın suverenliyi problemi mövcuddur. Lakin bununla yanaşı, deyək ki, Miqran Poqosyanla bağlı yüz milyonlarla dollarlıq məşhur ofşor qalmaqalı tarixçəsi də var.

Eyni zamanda, köhnə sistemin xarakteri və məntiqindən çıxış etsək, belə nəticə çıxara bilərik ki, burada söhbət, necə deyərlər, şərti olaraq "bir adam"ın, xüsusilə etibarlı və mümkündür ki, zəif birinin adı ilə adlandırılan zəncirin kollektiv pullarından gedir.

Beləliklə, Moskva onu Rusiyada gizlətməklə, praktik olaraq, Ermənistanın keçmiş sisteminin kollektiv resurslarının əhəmiyyətli hissəsini öz əlinə keçirir. "Açar" da Miqran Poqosyandır. Mikael Arutyunyan və Vaahn Arutyunyanın əlində necə toplayıcı "açar"ların olması isə artıq başqa söhbətin mövzusudur. Başqa sözlə, Rusiya özünün Ermənistan "açar"larını toplayır. Bu da həlledici ikinci andır. "Açar"lar Ermənistanın əlindənmi, yoxsa buradan getmək üçünmü alınır? Onlar artıq Ermənistanda Rusiya üçün bu"açar"ların aid olduğu kilidlərin dəyişdirildiyi hər hansı bir "qapı"nı açmaq iqtidarında deyildilər, yoxsa onlar Ermənistanın yeni rəhbərliyinin və onu dəstəkləyən cəmiyyətin gələcəyə hər hansı bir qapı aça bilməməsi üçün yığılır? Əslində, Rusiya belə himayəçilik etməklə, praktik olaraq, Ermənistanın yeni hakimiyyətinə qarşı deyil, cəmiyyətin bu hakimiyyəti dəstəkləyən əksəriyyətinə qarşı gedir. Görəsən, bu addımların təsirlərinə və ya nəticələrinə görə Moskva özünə hesabat verirmi? ". Erməni mediası yazır ki, Moskva, əslində keçmiş hakimiyyət təmsilçiləri vasitəsilə Ermənistanda yeni inqilab törətməyi də istisna etmir və sabiq prezident Robert Köçəryanın azadlığa buraxılıb siyasi meydana qaytarılması da bu planın tərkib hissəsidir.

***Nahid SALAYEV***

# Yüz il əvvəl polyak memarlarını Bakıya cəlb edən uzaqgörən azərbaycanlıların xatirəsinin Polşada əbədiləşdirilməsi... Polşa Prezidentinin gəlişindən doğan məsələ...

**Azərbaycanda rəsmi səfərdə olan Polşa Prezidenti Andjey Duda polşalı memarlar tərəfindən Bakıda yaradılan memarlıq abidələrinə xüsusi qayğı göstərildiyini qeyd edib. "Polşa memarları tərəfindən Bakıda yaradılan abidələrə bu gün xüsusi qayğı göstərilir...Biz polşalılar tarixən Azərbaycanda olmuşuq. Uzun illər ərzində - mən bunu xüsusi qeyd etmək istəyirəm - demək olar ki, yüz ildən də çox əvvəl Polşa memarları Azərbaycanda yaşayıblar, yaradıblar".**

A. Duda həmçinin qeyd edib ki, bir çox polyaklar, Polşanın ziyalı dairələrinin təmsilçiləri də burada olub: "Burada mən Polşa memarlarını xüsusi qeyd etmək istəyirəm. Bakının özünəməxsus gözəlliyinin yaradılmasında, abidələrinin qurulmasında Polşa memarları mühüm rol oynayıblar. Polşa memarları tərəfindən yaradılan həmin abidələrə bu gün xüsusi qayğı göstərilir. Onlar yeni çalarda öz gözəlliyi ilə bizi cəlb edir. Buna görə mən Sizə təşəkkürümü bildirirəm ki, bu gün biz, həmçinin Bakının mərkəzində Polşa memarlarının adını daşıyan küçəni açacağıq. Küçənin adı da çox böyük rəmzi məna daşıyır. Hesab edirəm ki, obrazlı desək, Polşa memarlarının xatirəsi bir daha əbədiləşdiriləcək..."

Xatırladaq ki, mayın 31-də Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi keçirilib. Paytaxtın Polşa memarları küçəsində keçirilən mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda iştirak edib. Məlum olduğu kimi, polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Buradakı binaların birində polşalı memarlar - İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunan xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub. Xatirə lövhələrinin müəllifi Azərbaycanın Əməkdar memarı Elbay Qasımzadədir.

XX əsrdə və ondan əvvəlki dövrlərdə xarici memarların Bakında inşa etdiyi binalar, memarlıq abidələrinin bu gün dövlətimiz tərəfindən qorunduğu faktdır və bunu Polşa Prezidenti də xüsusi qeyd etdi. Əlbəttə, polşalı memarların Bakının tikinti-quruculuq işlərinə cəlb edilməsi birbaşa Azərbaycanın dövlət xadimlərinin, eləcə də mesanatlarının, milyonçularının onları bu işə cəlb etməsi ilə bağlıdır. O dövrün milyonçuları, xeyriyyəçiləri o memarları bura dəvət etməsəydilər və onların işləməsi üçün şərait yaratmasaydılar, sözsüz ki, polşalı memarlar da burada hər hansı bir binanın inşasında iştirak edə bilməzdi. Onların yaratdığı şərait nəticəsində polşalı memarlar Bakıda binalar tikib, abidələr yaradıblar. Məlumdur ki, Polşa və Azərbaycan xalqları və dövlətləri arasındakı əlaqələrin möhkəmləndirilməsində əsas rolu Azərbaycanın o vaxtkı rəhbərləri, milyonçuları, uzaqgörən insanları oynayıb. Onlar Polşadan memarlar dəvət ediblər ki, gəlib burada bu abidələri yaratsınlar, binaları inşa etsinlər.

*Vaqif Abışov: "Polşada Azərbaycanın dövlət xadimlərinin, eləcə də polşalı memarları, mühəndisləri Bakının tikinti-quruculuq işlərinə cəlb edən xeyriyyəçilərin, iş adamlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində addımlar atılmalıdır"*



*"Bu işin həyata keçirilməsi üçün tarixi əsaslar çoxdur"*

Polşada Azərbaycana həmin dövrdə rəhbərlik edən dövlət xadimlərinin, fəaliyyət göstərən milyonçuların, xeyriyyəçilərin xatirəsinin əbədiləşdirilməsi üçün hansısa işlər görülübmü? Biz Bakıda Polşa memarlarının adına küçə veririk, onların tikdiyi abidələri qoruyub saxlayırıq, yaxşı olardı ki, Polşada da 100 il əvvəl hər iki dövlət arasında əlaqələrin qurulmasında xidmətləri olan Azərbaycan rəhbərlərinin, siyasətçilərinin, iş adamlarının, milyonçularının xatirəsinin əbədiləşdirilməsi üçün müəyyən addımlar atılsın.

Tarixçilər hesab edir ki, bu olduqca aktual məsələdir. Onlar hesab edir ki, Polşada Polşa - Azərbaycan əlaqələrinin qurulmasında, mədəniyyətlərinin bir-birinə yaxınlaşdırılmasında əməyi olan şəxsiyyətlərimizlə bağlı həm elmi araşdırmalar aparılmalı, həm də onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər görülməlidir.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə elmlər doktoru, tarixçi alim Vaqif Abışov baki-xeber.com-a bildirdi ki, bu olduqca vacib məsələdir və onun reallaşdırılmasına Polşa hökuməti xüsusi əhəmiyyət verməlidir.** Azərbaycanla Polşa arasında əlaqələrin hələ qədim dövrdən mövcud olduğunu vurğulayan V.Abışovun sözlərinə görə, münasibətlərin tarixi XV əsrə gedib çıxır. O qeyd etdi ki, XV əsrdə Ağqoyunlu hökmdarı Uzun Həsən Polşa kralı Yagello ilə sıx əlaqə saxlayıb. O həmçinin bildirdi ki, polyak Ledinski və azərbaycanlı Topçubaşov çar Dumasında Polşanın və Azərbaycanın muxtariyyəti uğrunda mübarizə aparan xüsusi fraksiya yaradıblar. Onun sözlərinə görə, Birinci Dünya Müharibəsindən sonra polyaklar Polşadan deportasiya olunarkən on minlərlə insan Azərbaycana gəlib və Azərbaycan Xalq Cümhuriyyəti Polşa ilə sıx əlaqələr yaradıb. "Polşada Azərbaycanın dövlət xadimlərinin, eləcə də polşalı memarları, mühəndisləri Bakının tikinti-quruculuq işlərinə cəlb edən xeyriyyəçilətin, iş adamlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində addımlar atılmalıdır. Düşünürəm ki, sizin qəzetin bu maraqlı və əhəmiyyətli təklifi çox aktualdır. Polşa - Azərbaycan əlaqələrinin qurulması, möhkəmlənməsi istiqamətində böyük rolu olan şəxsiyyətlərimizin adlarının Polşanın mərkəzi küçələrindən birinə verilməsi, yaxud hansısa tarixi binaya xatirə lövhəsi vurulması, eləcə də onların büstlərinin, heykəllərinin ucaldılması çox müsbət hal olardı. Çünki bu işin həyata keçirilməsi üçün tarixi əsaslar çoxdur. Polşa - Azərbaycan əlaqələrinin tarixi yeni deyil, bu, qədim dövrlərə söykənir. Onu da deyim ki, Azərbaycan Xalq Cumhuriyyətinin liderlərinin, xüsusən də Məhəmməd Əmin Rəsulzadənin Polşada çox geniş fəaliyyəti olub, o uzun müddət orada yaşayıb, hətta həyat yoldaşı da polşalı idi. Azərbaycanı həmin dövrdə Polşanın Pilsudski hökuməti ciddi şəkildə dəstəkləyib. Bu baxımdan demək istəyirəm ki, Polşa və Azərbaycan arasındakı əlaqələr heç vaxt kəsilməyib. Xüsusilə də 1918-20-ci illərə nəzər yetirsək görərik ki, Bakıda təkcə polşalı memarlar fəaliyyət göstərməyib, həmçinin də burada Polşa şurası, Polşa mərkəzi olub. Bakıda yalnız Polşa memarları deyil, Polşa Şurası da çox aktiv fəaliyyət göstərib. Bu baxımdan, polşalıların Azərbaycana xüsusi simpatiyası olub. Məsələn, Cumhuriyyət öz varlığını elan etikdən və xaricə çıxışını aktivləşdirəndən sonra Polşa nümayəndə heyətləri Bakıya gəlib, onlar Bakının müstəqilliyini daim müdafiə edəcəklərinə dair söz veriblər. Polşalılar burada yalnız abidələr yaratmaqla, binalar tikməklə kifayətlənməyiblər, o cümlədən də həmin dövrdə iki dövlət arasında münasibətlər daha da möhkəmlənib, genişlənib"-deyə V.Abışov qeyd etdi.

*"Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin, xüsusən də Məhəmməd Əmin Rəsulzadənin Polşada çox geniş fəaliyyəti olub"*

Tarixi alim həmçinin vurğuladı ki, Polşa dövləti tərəfindən də Azərbaycan və Polşa arasında əlaqələrin inkişafında əməyi olan şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində müəyyən addımlar atılıb. Tarixçinin bildirdiyinə görə, buna misal olaraq Azərbaycan-Polşa əlaqələrinin inkişafına müstəsna töhfələr verən Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Qniezno şəhərində Azərbaycan-Polşa "Dostluq" abidəsini, eləcə də, Polşanın paytaxtı Varşava şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Cümhuriyyət dövrünün hərbi xadimləri general leytenant Maçey Süleyman bəy Sulkeviçin və polkovnik Vəli bəy Yadigarın xatirəsinə ucaldılmış abidəni göstərmək olar.

***İradə SARIYEVA***

**İstər dövlət, istərsə də özəl qurumların rəsmi saytları o dərəcədə aktiv fəaliyyət göstərməlidirlər ki, istənilən vətəndaş, eləcə də KİV heç bir problemlə üzləşmədən məlumat əldə edə bilsin. Ancaq təəssüf ki, bir çox dövlət və özəl təşkilatın saytları ölü vəziyyətdədir. Bu da, demək olar ki, hər hansı bir hadisə ilə bağlı yeni məlumatlar almaq məsələsində vətəndaşlar üçün ciddi problemlər yaradır.**

# Saytlarını ölü vəziyyətə salmış dövlət qurumları cəzalandırılacaq...




*"Dövlət qurumlarının saytlarına məlumatı vaxtında yerləşdirməyən məsul şəxslərə qarşı xüsusi məsuliyyətin müəyyən edilməsi..."*

## *Müşfiq Ələsgərli: "Dövlət qurumları öz saytlarının fəaliyyətini o qədər operativ qurmalıdırlar ki, vətəndaş maneəsiz informasiya əldə edə bilsin"*

Bəzi dövlət qurumlarının saytlarındakı informasiyaların tez-tez yenilənməməsi probleminin aradan qaldırılması üçün müvafiq addımlar atılır.

Müəyyən qurumlar var ki, onlar Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli, 189 nömrəli Qərarı ilə təsdiq edilən "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"in 4-cü hissəsinin tələblərinə tam olaraq əməl etmirlər.

Qeyd edək ki, Nazirlər Kabineti "Şəhər və rayon (şəhər rayonu istisna olmaqla) inzibati ərazi vahidi üzrə elektrik enerjisi, qaz və su təchizatı şəbəkələrinin və sistemlərinin, həmin sistemlərdə mövcud qoşulma imkanlarını (sərbəst gücləri) əks etdirən məlumatların mühəndis-kommunikasiya təminatı xidmətləri göstərən təchizat müəssisələrinin internet saytlarına yerləşdirilməsi formasının və müddətinin müəyyən edilməsi qaydaları"nı təsdiqləyib.

Məlumatlara görə, internet saytlarına yerləşdirilmiş məlumatlarda dəyişikliklər baş verdikdə, həmin məlumatların təchizat müəssisələri tərəfindən yenilənməsi 3 iş günü müddətində həyata keçirilir.

Məlumatların təchizat müəssisələrinin internet saytlarına yerləşdirilməsi və yenilənməsi ilə bağlı Energetika Nazirliyi tərəfindən monitorinqlər aparılır.

Təchizat müəssisələri tərəfindən təyin edilən məsul şəxslər məlumatların internet saytlarına yerləşdirilməməsinə və ya yenilənməməsinə görə intizam məsuliyyəti daşıyırlar. Aparılan monitorinqlər nəticəsində məlumatların internet saytlarına yerləşdirilməməsi və ya yenilənməməsi aşkar edildikdə, nazirlik tərəfindən aidiyyəti təchizat müəssisəsinə ünvanlanan məktub əsasında həmin müəssisə tərəfindən təyin edilən məsul şəxslər intizam məsuliyyətinə cəlb edilirlər.

Sözügedən məsələ bir sıra dövlət qurumlarının ölü vəziyyətdə olan veb saytlarının canlandırılmasında nə kimi rol oynayacaq?

**Mətbuat Şurasının sədr müavini, tanınmış ekspert Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə bildirdi ki, yeni tələblər ictimaiyyəti məlumatlandırmaq səlahiyyətində olan qurumların üzərinə böyük məsuliyyət qoyur. "Azərbaycanda 2005-ci ildə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub.** 2006-cı ildən isə o qanun qüvvəyə minib. Burada informasiya əldə olunmasının standartları müəyyən edilib. Burada maraqlı cəhət ondan ibarətdir ki, informasiya əldə etmək yalnız mediaya aid deyil, vətəndaşlara da aiddir. Hər bir vətəndaşın istənilən dövlət qurumundan onu maraqlandıran suala cavab almaq hüququ var. İstər dövlət, istərsə də özəl qurumlar olsun, cəmiyyətə gündəlik lazım olan informasiyaları öz saytlarında yerləşdirməlidirlər ki, istənilən vətəndaş onu maraqlandıran sualı həmin təşkilatların veb saytlarına daxil olmaqla əldə edə bilsin. Bu, sadəcə, tövsiyyə deyil, bütün qurumlar qarşısında öhdəlik qoyur ki, onların hər biri özünün veb səhifələrini yaratmalı və onu informasiya ilə zənginləşdirməlidirlər. Əgər bunu etmirlərsə, onda onlarla bağlı hüquqi məsuliyyət yaranır. O informasiya resursları hər gün yenilənməlidir ki, orada yeni informasiyalar olsun. Bu qurumlar özlərinə aid olan bütün informasiyaları həmin resurslarda yerləşdirsinlər. Çox təəssüf ki, bu gün qurumların çoxunun saytları ölü canlara çevrilib. Baxmayaraq onlar saytı yaradıblar, onu guya ki, interaktiv ediblər, ancaq onların fəaliyyətinə aid vətəndaşı maraqlandıran məlumatlar yerləşdirilmir. Bura yerləşdirilən məlumatlar ümumi informasiya yükünün heç 20 faizini təşkil etmir. Ona görə də bu ciddi problemdir və hesab edirik ki, bu sahədə ciddi dəyişikliklər olmalıdır. Çox müsbət haldır ki, 2018-ci ildən başlayaraq bir çox dövlət qurumunda ictimaiyyətlə əlaqələr və mətbuat xidmətləri dəyişməyə başlayıb, bu işə peşəkar jurnalistlər cəlb olunublar".

M.Ələsgərlinin sözlərinə görə, bu postlara təyin edilən jurnalistlər, mütəxəssislər dövlət qurumlarının saytlarında yenidənqurma işləri aparıb, fəaliyyətlərini operativləşdirəcəklər. Bu sahədə ciddi dəyişikliklərin baş verəcəyinə ümid edən M.Ələsgərlinin sözlərinə görə, bu hazırda özünü o qədər də çox göstərməsə də, gələcəkdə bunun müsbət nəticələrini görəcəyik: "Bu məsələ lazımi səviyyədə həll edilməlidir ki, bəzi biabırçı vəziyyətlər aradan qaldırılsın. Son illər Azərbaycanda baş verən bəzi məsələlərin ictimaiyyətə düzgün çatdırılmamasının səbəbi ayrı-ayrı dövlət qurumlarının saytlarının və həmin qurumların mətbaut xidmətlərinin insanları vaxtında məlumatlandırmamasıdır. Onların operativ işləməməsi problemlər yaranmasına səbəb olub. Bilirsiniz ki, bu yaxınlarda İçərişəhərdə baş verən və böyük səs-küy yaradan hadisədən də gördük ki, zamanında bu məsələ ilə bağlı mətbuat xidməti qurumun saytına məlumat yerləşdirməyib. Bu da çaşqınlıq yaratdı. Dövlət qurumları öz saytlarının fəaliyyətini o qədər operativ qurmalıdırlar ki, vətəndaş maneəsiz informasiya əldə edə bilsin. Hesab edirəm ki, dövlət qurumlarının saytlarına məlumatı vaxtında yerləşdirməyən məsul şəxslərə qarşı xüsusi məsuliyyətin müəyyən edilməsi o qurumların saytlarının canlanmasına səbəb olacaq".

***İradə SARIYEVA***

# Kredit ittifaqlarının əmanət cəlbinə qadağalar işdə kimlərə faydalı olacaq...




*"Azərbaycanda kredit ittifaqlarının hüquqi və fiziki şəxslərdən əmanət cəlb edə bilməməsi onların fəaliyyətində ciddi problem yaradacaq"*

## *Natiq Cəfərli: "Əlavə mənbə olmasa kredit ittifaqlarının fəaliyyəti mümkün olmayacaq"*

**Məlum olduğu kimi, Azərbaycanda kredit ittifaqlarının hüquqi və fiziki şəxslərdən əmanət (depozit) cəlb etməsi qadağan edilib.**

Bu məsələ Milli Məclisin ötən həftəsonu keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Kredit ittifaqları haqqında" qanuna dəyişiklikdə əksini tapıb. Yeni layihəyə əsasən, kredit ittifaqlarının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun qarşısının alınması ilə bağlı fəaliyyəti "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına, terrorçuluğun leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanuna uyğun olaraq tənzimlənir. Qeyd edək ki, kredit ittifaqlarının əsas məqsədi kooperativ üzvlərinin sərbəst pul vəsaitlərinin birləşdirilməsi və öz üzvlərinə kredit verilməsidir. Maraqlıdır, kredit ittifaqlarının hüquqi və fiziki şəxslərdən əmanət (depozit) cəlb edə bilməməsi onların fəaliyyətinə necə təsir edəcək?

İqtisadçı ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kredit ittifaqları depozit cəlb edə bilmədiyi halda kredit vermək üçün əlavə mənbələrə çıxış imkanı əldə etməlidir: "Məlumdur ki, kredit ittifaqları əmanət qəbul edərək kredit verirdilər. Artıq bu qadağan olunursa, kredit ittifaqları yeni mənbə tapmalıdır. Əlavə mənbə olmasa kredit ittifaqlarının fəaliyyəti mümkün olmayacaq".

Həmsöhbətimiz onu da vurğuladı ki, kredit ittifaqları fəaliyyətini davam etdirmək üçün xarici kredit təşkilatlarından vəsait cəlb edərək ölkədə kredit verə bilər. Ancaq bu indiki halda mümkün görünmür. İqtisadçı hesab edir ki, Azərbaycanda kredit ittifaqlarının hüquqi və fiziki şəxslərdən əmanət cəlb edə bilməməsi onların fəaliyyətində ciddi problem yaradacaq: "Belə bir qərarın verilməsində məqsəd gələcəkdə problemli kredit məsələsinin yaşanmamasıdır".

***Günel CƏLİLOVA***

**Azərbaycan qədim bir diyardır. Onun qədimliyini sübut edən minlərlə maddi-mədəni irs nümunəsi mövcuddur. Məlum olduğu kimi, Azərbaycanın hər bir rayonunda, bölgəsində tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir. Bu muzeylərdə əsasən arxeoloji qazıntılar zamanı o ərazilərdən aşkarlanan tarix-mədəniyyət nümunələri, eksponatlar yer almalıdır.**

# Diyarşünaslıq muzeylərimizdə "qarışıq eksponatlar" problemi...



*"Təklif edirəm ki, respublika üzrə vahid arxeologiya fondu yaradılsın"*

***Fariz Xəlilli:*** *"Bir bölgəyə aid eksponatların başqa bölgələrin tarix-diyarşünaslıq muzeylərində saxlanmasının qarşısı alınmasa, bu sahədə ciddi qarışıqlıq yaranacaq"*

Ancaq bəzən görürsən ki, bir çox tarix-diyarşünaslıq muzeyində başqa rayonlara, bölgələrə aid olan eksponatlar da var. Halbuki, bir rayona, bölgəyə aid olan hansısa bir eksponatın başqa bir rayonun tarix-diyarşünaslıq muzeyinin ekspozisiyasında yer alması doğru deyil. Həmin maddi-mədəni irs örnəyi hansı rayonun ərazisindən tapılıbsa, həmin rayonun da müvafiq muzeyində saxlanmalıdır. Tutalım, Şamaxıda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan hansısa bir arxeoloji material Lənkəran, yaxud Qazax muzeyində saxlanmamalıdır. Ancaq təəssüf ki, bəzən qeyri-peşəkarlar tərəfindən muzeyləri zənginləşdirmək adı ilə bu kimi qanunsuzluqlara yol verilir.

**MİRAS-Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli bizimlə söhbətində bildirdi ki, bu kimi halların mövcudluğu qanun pozuntusudur.** "Əslində, yerin altında və yerin üstündə olan istənilən maddi mədəniyyət nümunəsi bir identiklikdir. Yəni o bölgənin özünəməxsusluğudur. O arxeoloji eksponatları Azərbaycanın cənubundan gətirib şimalındakı bir muzeyə qoyduqda maddi mədəniyyət nümunəsinin identikliyini pozmuş oluruq. Məsələn, Qazaxdan tapılan bir materialı aparıb Lənkəran muzeyinə qoymaq, yaxud Lənkərandan aparıb Naxçıvana qoymaq mədəni irs etikasına uyğun deyil. Yəni bu, bütün dünyada belədir. Bəzi ölkələr başqa ölkələrdə apardıqları arxeoloji qazıntıların ki, nəticələrini öz ölkələrinə aparıblar, indi onlar həmin materialları geri qaytarırlar. Bu artıq bütün dünyada təcrübə halını alıb. Azərbaycanda maddi mədəniyyət nümunlərinin bu şəkildə hərəkəti yolverilməzdir".

F.Xəlilli hesab edir ki, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun fondunda bu eksponatlar mühafizə edilə bilər, yaxud Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında nümayiş oluna bilər. Onun sözlərinə görə, bu eksponatların mərkəzi muzeylərdə nümayişi təbiidir, ancaq bölgə muzeylərində, yaxud digər profilli muzeylərdə nümayiş oluna bilməz. "Məsələn, "Qala" Arxeooji Etnorqafik Muzeyində Xaçbulağa aid olan bir material nümayiş oluna bilməz. Çünki o, Xaçbulağa aiddir. Qalada tunc dövrü olubmu? Tunc dövrünün ayrıca xüsusiyyətləri var. Yəni bu mənada maddi-mədəni irs nümunələrinin belə hərəkəti yolverilməzdir, bu qeyri-etikdir. Bu məsələ gündəmdə olmalıdır. Bu məsələ ilə həm Mədəniyyət Nazirliyinin Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, həm Mədəniyyət Nazirliyinun muzeylər şöbəsi, həm də Arxeologiya və Etnoqrafiya İnstitutu ciddi məşğul olmalıdırlar. Bir bölgəyə aid eksponatların başqa bölgələrin tarix-diyarşünaslıq muzeylərində saxlanmasının qarşısı alınmasa, bu sahədə ciddi qarışıqlıq yaranacaq. Mən bu məsələnin həll edilməsi ilə bağlı təklif edirəm ki, respublika üzrə vahid arxeologiya fondu yaradılsın.

Bütün materiallar orada olsun, müvəqqəti olaraq sərgilənmək üçün həmin materiallar başqa yerlərə verilsin. Yəni o materialları sərgiləmək istəyənlər oradan götürüb sərgiləsinlər" - deyə F.Xəlilli bildirdi.

*İradə SARIYEVA*

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIROV FƏRHAD İSRAFİL oğlu**



23 aprel 1971-ci ildə Azərbaycan Respublikasının Samux rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Samux rayonunun Qaraarx kəndində yaşamışdır. Samux RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Fərhad İsrafil oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 21 oktyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Fərhad İsrafil oğlu 21 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Fingə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Fərhad İsrafil oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV FƏRHAD NƏCƏF oğlu**



2 yanvar 1951-ci ildə Azərbaycan Respublikasının Lənkəran rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Lənkəran rayon mərkəzində yaşamışdır. Lənkəran RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Fərhad Nəcəf oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 28 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Fərhad Nəcəf oğlu 28 mart 1993-cü il tarixində Kəlbəcər rayonunun Tunel adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı işğal olunan ərazidə qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Fərhad Nəcəf oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV FÜZULİ İSLAM oğlu**



25 fevral 1970-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Gəncə şəhərinin Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Füzuli İslam oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 6 iyul 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Füzuli İslam oğlu 6 iyul 1993-cü il tarixində Ağdam rayonunun Şahbulaq yüksəkliyi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsini tərk edə bilməyərək naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Füzuli İslam oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV QÜDRƏT NÜSRƏT oğlu**



14 may 1965-ci ildə Azərbaycan Respublikasının Lənkəran rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Lənkəran rayonunda yaşamışdır. Lənkəran RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Qüdrət Nüsrət oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 31 yanvar 1994-cü ildə Xocavənd rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Qüdrət Nüsrət oğlu 31 yanvar 1994-cü il tarixində Xocavənd rayonunun Şişqaya yüksəkliyi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Qüdrət Nüsrət oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Təhsil Nazirliyinin daha bir layihəsi - yerini dəyişmək istəyən müəllimlər...

**Təhsil Nazirliyi müəllimlərin iş yerini dəyişdirməsi üçün müsabiqəyə start verib. Belə ki, iyunun 3-dən etibarən Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinə start verilib.**



*"Bu müsabiqələr sayəsində bəzi məktəblərdə hansı fənn üzrə pedaqoq çatışmadığı aydın olur"*

***Məlahət Mürşüdlü:** "Pedaqoqların iş yerini dəyişmək üçün müsabiqələrin keçirilməsi əhəmiyyətlidir"*

Müsabiqədə iştirak etmək istəyən namizədlər iş yeri diaqnostik qiymətləndirilmədə və işə qəbul üzrə müsabiqədə iştirak etdiyi bölmə və ixtisasa uyğun olaraq dəyişdiriləcək.

Vakansiyalara yerləşdirilmə zamanı işə qəbul müsabiqəsi və ya diaqnostik qiymətləndirilmədə toplanan bal əsas götürüləcək.

Namizədlər müəllimlərin işə qəbulu üzrə müsabiqədə və ya diaqnostik qiymətləndirilmədə iki və ya daha çox sayda iştirak ediblərsə, üstünlük verdikləri balla müsabiqəyə qatıla bilərlər.

Onu da qeyd edək ki, müsabiqə zamanı bəzi sosial amillərlə əlaqədar namizədlərin topladıqları bal artım əmsalına vurulacaq. Belə ki, əri və ya arvadı hərbçi və ya özü şəhid ailəsinin üzvü olan namizədlərin topladıqları bal 1,1 artım əmsalına, iş yerini özünün faktiki yaşayış yeri və ya qeydiyyatda olduğu ərazidə yerləşən, həvəsləndirmə tədbirləri tətbiq edilən müəssisəyə dəyişdirən namizədlərin topladıqları bal 1,05 artım əmsalına vurularaq hesablanacaq. Hər iki şərti ödəyən namizədlərin topladığı bal isə 1,1 artım əmsalına vurularaq hesablanacaq.

**Müəllimlərin iş yerini dəyişdirməsi müsabiqəsinin keçirilməsinin əhəmiyyəti barəsində danışan təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu addım çox əhəmiyyətlidir:** "Elə müəllimlər var ki, onlar ailə vəziyyətinə görə iş yerini dəyişmək məcburiyyətindədirlər. İş yeri başqa bir ərazidə, özü isə işindən uzaq məsafədə yaşayan pedaqoqların işini dəyişməsi əvvəllər çətin prosedur idi.

**Ancaq indi Təhsil Nazirliyi bu məsələ ilə bağlı müsabiqə elan edib və iş yerini dəyişmək istəyən pedaqoqlar müsabiqədə iştirak edərək istədikləri ərazinin təhsil müəssisəsində çalışa bilərlər".**

Həmsöhbətimiz onu da vurğuladı ki, müəllimlərin iş yerinin dəyişməsi üçün müsabiqələrin keçirməsi vacibdir. Bu müsabiqələr sayəsində bəzi məktəblərdə hansı fənn üzrə pedaqoq çatışmadığı aydın olur.

**Belə olduğu halda, namizədlər bölgələr və ya paytaxtda mövcud olan təhsil müəssisələrində hansısa fənn üzrə pedaqoqa ehtiyacı öyrənib o ərazidə çalışmağa maraq göstərəcəklər.**

*Günel CƏLİLOVA*

# Bakı bağçasında müəllimənin 2 yaşlı uşağa misilsiz vəhşiliyi...

**Bir neçə gün öncə tək ölkəmizdə deyil, bütün dünyada Uşaqların müdafiəsi günü qeyd olundu. Məlumdur ki, Azərbaycanda uşaqların müdafiə olunması və onlara qayğı göstərilməsi istiqamətində çoxsaylı iş görülür. Uşaq hüquqlarının müdafiəsi ilə bağlı Azərbaycanda qanunvericilik bazası formalaşıb.**



*"Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoqlar mütləq ildə bir, ya iki dəfə psixoloji testdən keçməlidirlər"*

***Könül Vaqifqızı:** "Tərbiyəçinin uşağa şiddət göstərməyə və söyüş söyməyə nə ixtiyarı var?!"*

Uşaqlar günündə sosial şəbəkədə bağçada çalışan tərbiyəçinin 2 yaşlı körpə uşağı təhqir etməsini əks etdirən video yayıldı. Videonu Aynur Şahkərimova adlı xanım paylaşıb. Videoda uşaq bağçalarından birinin müəlliməsinin uşaqlarla kobud rəftar etdiyi görünür.

Videoda tərbiyəçinin uşaqlara hətta söyüş söydüyü, onlardan birini isə kobud şəkildə müdaxilə edərək vurduğu əks olunub.

Videonu yayan A.Şahkərimova bunları qeyd edib: "Zığda bağça müəlliməsi valideynlərin qrupuna şəkil atmaq istərkən səhvən videoya sıxıb, özü də bilmədən bu dəhşətli, söyüşlü, təhqirli davranış üzə çıxıb. Bir cəza verilibmi? Bəs necə, cəzasız olarmı? Xanıma sadəcə "töhmət" elan edilib".

Qeyd edək ki, hadisə Zığda yerləşən 331 saylı bağçada baş verib. Tərbiyəçinin uşağı sakitləşdirmək əvəzinə, onu təhqir etməsi və şiddət göstərməsi ölkə ictimaiyyəti tərəfindən hiddətlə qarşılanıb. İctimaiyyətin rəyindən sonra bağça rəhbərliyi işə qarışıb, həmin tərbiyəçi işdən azad olunub.

Uşaq bağçalarında tərbiyəçinin uşaqlarla sərt davranışı birinci dəfə deyil baş verir. Bu kimi hadisə dəfələrlə olub.

Ekspertlər təklif edirlər ki, uşaq bağçalarında çalışan tərbiyəçilər psixoloji testdən keçirilsinlər. Uşaqlarla davranış qabiliyyətinə sahib ola bilməyən şəxslərin tərbiyəçi kimi işləməsinin düzgün olmadığı bildirilir.

**Psixoloq Könül Vaqifqızı bizimlə söhbətində qeyd etdi ki, heç bir müəllimin ixtiyarı yoxdur ki, ona əmanət edilən uşağa sərt münasibət göstərsin:** "Bir neçə gün öncə Zığ qəsəbəsindəki bağçada tərbiyəçinin Cəmilə adlı uşağı necə təhqir etməsini əks etdirən videonu ürək ağrısı ilə izlədim. Həmin müəllimənin özünün psixoloqa ehtiyacı var. Onun uşağa şiddət göstərməyə və söyüş söyməyə nə ixtiyarı var?!".

K.Vaqifqızının sözlərinə görə, müəllim, tərbiyəçi müəyyən kodekslər çərçivəsində hərəkət etməlidir: "Pedaqogikada müəllimlərə öyrədilir ki, tədrisdə cəza, fiziki şiddət yoxdur. Cəza kimi şagirdin qiymətini aşağı sala bilər, valideyni dəvət edə bilər, rəhbərliyə müraciət edə bilər.

Tutaq ki, şagird dərsdə özünü yaxşı aparmırsa, qabaqlayıcı tədbir görə bilər. Ola bilsin uşaq dəcəldir və ya ona deyilən sözü düzgün qəbul edə bilmir. Bu kimi hal baş verdiyi halda tərbiyəçi hisslərə qapılmayıb qabaqlayıcı tədbirlər görməlidir.

Təhsil müəssisələrində çalışan pedaqoqlar mütləq ildə bir, ya iki dəfə psixoloji testdən keçməlidirlər. Onlarla müəyyən psixoloji iş aparılmalıdır. Çünki bu, pedaqoqdur.

**Fiziki zorakılıq qəbul edilmir. Xüsusən də bağça yaşlı uşağa və ya şagirdə qarşı əl qaldırmaq olmaz. Ümumiyyətlə, bağça və orta təhsil məktəblərində psixoloji işi gücləndirmək lazımdır. Tərbiyəçi və müəllimlərin hazırlığında psixoloji savadlılığa diqqət artırılmalıdır".**

*Günel CƏLİLOVA*

# Rəsmi dayanacaqlarda əhalidən inanılmaz pul qopartma üsulu - itirilən çekə görə 10-15 manat cərimə...

**Bakıda sürücülərin üzləşdiyi böyük problemlərdən biri də park yerləri ilə bağlıdır. Hər bir parklanma yerində sürücülər, saatından asılı olaraq, 2 manatdan başlayan ödənişlər etməyə vadar edilir. İstər paytaxtın mərkəzi küçələrinə, avtodayanacaq və ya istənilən ticarət mərkəzinə avtomobillə daxil olarkən sürücü giriş üçün parkinq aparatının düyməsini basaraq oradan çek əldə edir.**



*"Bu kimi hal baş verdikdə nəqliyyat vasitəsinin dayanacaqdan çıxması üçün zəruri tədbirlər həyata keçirilməlidir"*

## *Azər Allahverənov: "Parkinq üçün sürücülərə verilən talon itdiyi halda avtomobili idarə edən şəxsin müəyyən məbləğdə cərimə ödəməsi qanunsuzdur"*

Sürücü ticarət və ya istirahət mərkəzindən çıxarkən parkinq aparatına həmin çeki yaxınlaşdırır, aparat talonu qəbul etdikdən sonra şlaqbaum açılır və o ərazini tərk edə bilir. Müəyyən səbəblərdən çek itirilərsə, sürücü həmin məkandan çıxa bilmir.

Belə olan halda, avtodayanacaq talonunun itirilməsinə görə sürücülər cərimə olunurlar. Cərimənin məbləği 10-15 manat dəyərindədir. Sürücü cəriməni ödəyəndən sonra həmin məkanı tərk edə bilər.

Ancaq avtodayanacaqların sürücülərə təqdim etdiyi talon müqavilə şərti ilə deyil, öz öhdəliklərini yerinə yetirməyə görə verilir. Əksər hallarda sürücülər, bir qayda olaraq, mübahisə etmədən cəriməni ödəyirlər. Ekspertlər bildirirlər ki, sürücülərin bir qismi qanunu bilmədiklərindən və məbləğin kiçik olduğunu düşünüb cəriməni yerindəcə ödəyib məkanı tərk edir.

Avtodayanacaqlarda parkinq üçün nəzərdə tutulan talonun itməsinə görə sürücülərin 10-15 manat dəyərində cərimələnməsinin qanunsuz olmasını müsahiblərimiz də təsdiqləyirlər.

**Nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, özəl dayanacaqların sahibləri maraqlıdırlar ki, onların sürücülərə təqdim etdikləri talona səliqəli yanaşsın.** Həmin talon itərkən texniki cəhətdən müəyyən problem yaradır: "Məlumdur ki, avtodayanacaqlara giriş həmin talon vasitəsilə baş verir. Talon olmazsa, sürücünün o məkanı tərk etməsi mümkün olur, ancaq müəyyən prosedurlar keçdikdən sonra baş verir. Özəl avtodayanacaqlar bu kimi hadisə baş verərsə, qanunsuz əməldən istifadə edirlər. Onlar parkinq üçün sürücülərə verilən talon itirilərsə, müəyyən məbləğdə cərimə ödənəcəyini bildirirlər. Təbii ki, bu qanunsuzdur".

Həmsöhbətimiz onu da vurğuladı ki, Bakı şəhərində fəaliyyət göstərən avtodayanacaqların birində parkinq üçün sürücülərə verilən talon itirildiyi halda avtomobil sahibi 10-15 manat deyil, 30-50 manat cərimələnir. Hətta bu məbləğ həmin talonun üzərində də qeyd olunur: "Sürücü müəyyən səbəblərdən dayanacağa giriş-çıxış üçün verilən talonu itirdikdə bununla bağlı müəyyən qaydalar tətbiq olunmalıdır. Bu kimi hal vaş verdikdə nəqliyyat vasitəsinin dayanacaqdan çıxması üçün zəruri tədbirlər həyata keçirilməlidir".

***Günel CƏLİLOVA***

# Azərbaycana turist axınında çinlilər və yaponlar ərəbləri üstələməyə başlayıb

**Bu ilin yanvar-aprel aylarında Azərbaycana Yaponiya və Çindən gələn turistlərin sayı çoxalıb. Məlum olub ki, yanvar-aprel aylarında ölkəmizə Çindən gələnlərin sayı 1,6 dəfə, Yaponiyadan gələnlərin sayı 37,1 faiz artıb.**




*"Bu ölkələrdən gələn turistlər qənaətcil olur, israfçılığa yol vermirlər"*

## *Rəsul Cahangirli: "Asiya ölkələri içərisində Yaponiya və Çindən gələn turistlər mədəni səviyyələrinə görə daha üstündürlər"*

Bu ilin təkcə aprel ayında isə Azərbaycana gələn əcnəbilərin sayı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz və ya 19,4 min nəfər artaraq 238 minə çatıb.

Ümumilikdə, bu il Azərbaycana dünyanın 170 ölkəsindən 848,4 min əcnəbi gəlib ki, gələnlərin sayında daha çox artım Misir (2,2 dəfə), Səudiyyə Ərəbistanı (1,9 dəfə), Hindistan (1,8 dəfə), Türkmənistan (1,8 dəfə), Çin (1,6 dəfə), Yaponiya (37,1 faiz), Kanada (31,8 faiz), Pakistan (28,8 faiz), Gürcüstan (22,6 faiz), Polşa (20,8 faiz) və Cənubi Koreya (20,5 faiz) vətəndaşları arasında qeydə alınıb.

Dövlət Turizm Agentliyindən verilən məlumata görə, Çinin Mədəniyyət və Turizm Nazirliyi ilə bağlanmış "Çinli turistlərin Azərbaycana qrup səfərlərinin sadələşdirilməsi haqqında Anlaşma Memorandumu"na əsasən, yaxın illərdə Azərbaycana bu ölkədən gələcək turistlərin sayı 200 min nəfərə çata bilər. 2018-ci ildə bu istiqamətdə 50 faiz artım müşahidə olunub.

Görünən odur ki, Çin və Yaponiyadan ölkəyə gələn turistlərin sayında artım tendensiyası var. Əvvəllər ərəb ölkələrindən daha çox turistin gəlməsi ənənə halını almışdısa, bu gedişlə yaxın illərdə bu sahədə vəziyyət kökündən dəyişə bilər. O baxımdan, Çin və Yaponiyadan Azərbaycana gələn turistlərin sayındakı artım tendensiyasını ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirli Çin və Yaponiyadan Azərbaycana gələn turistlərin sayının artmasını müsbət dəyərləndirdi:** "Bu çox müsbət haldır. Nəzərə almaq lazımdır ki, Azərbaycanla Çin arasında bu sahədə imzalanmış ikitərəfli memorandum yeni imkanlar açır. Bu imkan verir ki, daha çox çinli turist Azərbaycana gəlsin. O cümlədən, sevindirici haldır ki, Yaponiya kimi inkişaf etmiş ölkədən olan turistlər Azərbaycana səyahət etməyə maraq göstərirlər. Yaponiya turistləri üçün Azərbaycan daha maraqlıdır. Son illər onlar müxtəlif media resursları vasitəsilə Azərbaycanda gedən inkişafı, ölkəmizin bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etdiyini izləyirlər. Bütün bunlar onlarda Azərbaycana turist səyahəti etmək marağı yaradır. Bir məqamı xüsusi qeyd etmək istəyirəm ki, Asiya ölkələri içərisində Yaponiya və Çindən gələn turistlər mədəni səviyyələrinə görə daha üstündürlər. Bu ölkələrdən gələn turistlər qənaətcil olur, israfçılığa yol vermirlər. İctimai həyatda konfliktə səbəb ola biləcək hallara yol vermirlər. O baxımdan hesab edirəm ki, bu yöndə gedən proseslər müsbət tendensiyadan xəbər verir və bunu təqdir etmək lazımdır".

***Vidadi ORDAHALLI***

# Binəqədidə yanmış binaya görə həbs edilmiş şirkət rəhbəri azadlığa buraxıldı

**Bakının Binəqədi rayonunda 16 mərtəbəli yaşayış binasında baş verən dəhşətli yanğında təqsirləndirilərək həbs olunan "Global Construction" MMC-nin rəhbəri Miryusif Mahmudov azadlığa buraxılıb.**

"Trend"in məlumatına görə, məhkəmə M.Mahmudov barəsində olan həbs cəzasını şərti cəza ilə əvəz edib.

İttihama görə, 2015-ci il mayın 19-da paytaxtın Binəqədi rayonu ərazisində çoxmərtəbəli yaşayış binasında ağır nəticələrə səbəb olan yanğın hadisəsi baş verib. Yanğın nəticəsində 15 nəfər ölüb, 50 nəfər xəsarət alıb. Qulluq mənafeləri tələb etdiyi halda səlahiyyətlərindən istifadə etməmələri nəticəsində vətəndaşlar və dövlətin hüquqlarına və qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarında kifayət qədər əsaslar olduğundan, binanın üzlənməsində istifadə olunan "poliuretan" məmulatını istehsal edən "QlobalStone" MMC-nin baş direktoru Bəşirov Uğur Firuz oğlu, "Global Construction" MMC-nin təsisçisi və idarə heyətinin sədri Mahmudov Miryusif Mircəfər oğlu, həmin cəmiyyətin İdarə Heyətinin sədr müavini Əsgərov Ələkpər İldırım oğlu, Binəqədi rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini Novruzov Qəzənfər Məhərrəm oğlu, 2012-2013-cü illərdə Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi işləmiş rayon İcra Hakimiyyətinin Təsərrüfat şöbəsinin müdiri Rəcəbov Ədalət Şəmsəddin oğlu, Binəqədi rayonu, 72 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Orucov Nizami Qara oğlu Cinayət Məcəlləsinin 225.2 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə, "poliuretan" məmulatlarının sınaq yoxlamalarını keçirən "Dərnəgül Boru Zavodu" Qapalı Səhmdar Cəmiyyətinin sınaq laboratoriyasının müdiri Məmmədov Ağacavad Hacı oğlu Cinayət Məcəlləsinin 308.2 və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə, "poliuretan" məmulatlarına dair texniki şərtləri razılaşdırmış Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Əlibəyov Akif Muradəli oğlu Cinayət Məcəlləsinin 308.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq onlara həmin maddələrdə nəzərdə tutulan 4 ittiham elan edilib. A.Əlibəyov və A.Məmmədov barəsində isə həbs qətimkan tədbiri seçilməyib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə M.Mahmudov 8 il, Ə.Əsgərov 4 il, U.Bəşirov 5 il, Qəzənfər Novruzov 4 il, Ə.Rəcəbov 4 il, N.Orucov 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

A.Məmmədovla A.Əlibəyovun barəsində isə Cinayət Məcəlləsinin 70-ci (şərti məhrum etmə) maddəsi tətbiq olunub və onlara şərti cəza verilib. Hökmdən narazı qalan məhkumlar apellyasiya şikayəti veriblər. Bakı Apellyasiya Məhkəməsi isə apellyasiya şikayətini təmin etməyib.

№ 98 (3996) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

4 İYUN 2019-cu il

www.baki-xeber.com

## "Nar" Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə autizmli uşaqlara dəstək oldu

**"Nar" 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə autizm sindromlu uşaqlar üçün ölkəmizdə ilk dəfə keçirilən Autizm Mədəniyyət Festivalına dəstək olub.**

Heydər Əliyev Mərkəzində keçirilmiş festivalda autizim sindromlu uşaqlar incəsənətin müxtəlif sahələrində öz istedadlarını nümayiş etdiriblər. Rəqslərlə, solo, xor şəklində ifalar, tanınmış sənətçilərlə birgə çıxışlar ilə zəngin olan festivalda autizm sindromlu uşaqlar podiumda bir model kimi də bacarıqlarını göstəriblər. Festivalın təşkilatçıları "Birgə və Sağlam" İctimai Birliyi, "Uşaqların Xoşbəxt Gələcəyi" İctimai Birliyi və "Ümid var" xeyriyyə könüllüləri olub. Layihə Heydər Əliyev Fondu tərəfindən dəstəklənib.

Autizm sindromlu uşaqlar podiumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın əsəri köçürülmüş parçadan modelyer Afaq İsmayılovanın hazırladığı kolleksiyanı təqdim ediblər. Festivalda Türkiyədən gələn və autizm sindromlu uşaqlardan ibarət olan İzmir Autizm Orkestri - İZOT xor qrupu maraqlı proqramla çıxış edib. Qonaqların "Autizm nədir?" sualına cavab tapması üçün qısametrajlı animasiya filmi də nümayiş olunub.

Tədbir autizm sindromlu uşaqların öz istedad və bacarıqlarını nümayiş etdirmələrinə şərait yaratmaq, onların sosiallaşmasına, cəmiyyətə inteqrasiya olunmalarına dəstək olmaq məqsədi daşıyır. Qeyd edək ki, "Nar" xüsusi qayğıya ehtiyacı olan insanları daim diqqətdə saxlayır və onların cəmiyyətə inteqrasiya olunması istiqamətində müxtəlif addımlar atır. Mobil operator "autizm spektr pozuntuları" diaqnozlu uşaqlarla bağlı bir neçə layihə icra edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Elan

Azərbaycan Turizm və Menecment Universitetinin I kurs tələbəsi Salmanova Leyla Əlizamin qızına verilmiş tələbə bileti itirildiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiş kənd sakini Səfərov Nərbala Dövlət oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 567 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

"OMERTOYA" MMC (VÖEN 1305914201) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Yasamal rayonu, A.Şaiq küçəsi, dalan 2, ev 8 ünvanına bildirə bilərlər.

Məmmədova Səlimə Elmir qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Orucev Vaqif Abdulhüseyn oğlunun adına, Türkan Bağlar Massivində yerləşən № 537 bağın müqaviləsi itdiyi üçün etibarsız sayılır

Məhərrəmova Günay Firdovsi qızına Azərbaycan Qərb Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"RİPDOYN" MMC (VÖEN 130590271) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Yasamal rayonu, A.Şaiq küçəsi, dalan 2, ev 8 ünvanına bildirə bilərlər.

## "Azercell" növbəti dəfə tələbələrlə görüşdü

**Hər il ölkəmizdə keçirilən əmək yarmarkalarında və sərgilərində fəal iştirak edən "Azercell Telekom" MMC növbəti dəfə Xəzər Universitetində ənənəvi olaraq təşkil olunan İş Sərgisində tələbələrlə görüşüb.**

"Azercell"in İnsan Qaynaqları Departamentinin mütəxəssisləri sərgi iştirakçılarına şirkətdə mövcud karyera imkanları və xüsusi olaraq tələbələr üçün keçirilən proqramlar barədə geniş məlumat təqdim ediblər. Qeyd edək ki, bu il "Azercell" tələbələr üçün yeni "Azercell-Lab"- ödənişli təcrübə proqramını elan edib. Layihənin məqsədi rəqəmsal texnologiyalara marağı olan tələbələrə dəstək olmaq və onları telekom sahəsinin ən son yenilikləri ilə daha yaxından tanış olmağa dəvət etməkdir. Seçim mərhələlərini uğurla keçən tələbələr ""İT-lab" və "Biznes-lab" inkubasiya mərkəzlərində 6 aylıq ödənişli təcrübə keçmək, "Azercell" tərəfindən həyata keçirilən sosial layihələrdə, müxtəlif təlimlərdə və şirkətin korporativ tədbirlərində iştirak etmək imkanı əldə edirlər. Məlumat üçün bildirək ki, "Azercell" daim istedadlı gənclərə karyera qurmaqda, onlara iş aləmində öz yerlərini tapmaqda yardımçı olur. Hər il baş tutan bu cür tədbirlər zamanı şirkətdə işləmək istəyən tələbələrə "Azercell"in fəaliyyəti, iş prinsipləri barədə ətraflı məlumat verilir. "Azercell Telekom" MMC öz fəaliyyəti dövrü ərzində gənclərin inkişafına hər zaman xüsusi qayğı ilə yanaşıb. Bir sıra ali təhsil ocaqları ilə əməkdaşlıq memorandumları imzalayan şirkət, tələbələrin innovativ ideyalarının reallaşdırılmasına, onların təcrübəli və peşəkar kadr olaraq yetişdirilməsinə daim öz töhfəsini verir. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Azercell" ilə əsl rahatlığı hiss edin!

*"Azercell Telekom" MMC abunəçilərinin istifadəsinə yeni "Sərbəst10", "Sərbəst15", "Sərbəst25", "Sərbəst50" və "Sərbəst75" tarif paketlərini təqdim edir*

**Rəqəmsal dünyanı müştəriləri üçün daha əlçatan etməyi hədəfləyən "Azercell" bu dəfə abunəçilərini bir çox imkanları özündə birləşdirən yeni "Sərbəst" tarif paketi ilə sevindirir.**

Yeni "Sərbəst" tarif paketi internet və danışıq xidmətlərinin aktiv istifadəçilərinə əlverişli qiymətlərdən yararlanaraq, rabitə xərclərinə qənaət və tam rahatlıq əldə etmək imkanı təqdim edir. "Sərbəst" tarif paketi "Azercell" abunəçilərinə bir tarif paketi çərçivəsində pulsuz danışıq dəqiqələri və internet, "WhatsApp", "Facebook" messenger, "Telegram", "Viber", "Twitter" mobil tətbiqləri vasitəsilə pulsuz yazışma imkanı və hətta "Facebook", "Instagram" və "YouTube" mobil tətbiqlərindən pulsuz istifadə fürsətini təklif edir.

| Sərbəst 10 | Sərbəst 15 | Sərbəst 25 | Səbəst 50 | Sərbəst 75 |
|---|---|---|---|---|
| Fakturasız Xətt | Fakturasız Xətt Fakturalı Xətt | Fakturasız Xətt Fakturalı Xətt | Fakturasız Xətt Fakturalı Xətt | Fakturasız Xətt Fakturalı Xətt |
| 10 AZN | 15 AZN | 25 AZN | 50 AZN | 75 AZN |
| 2 GB internet | 4 GB internet | 10 GB internet | 15 GB internet | 50 GB internet |
| 200 şəbəkədaxili dəqiqə | 300 şəbəkədaxili dəqiqə | 600 şəbəkədaxili dəqiqə | 2000 şəbəkədaxili dəqiqə | 3000 şəbəkədaxili dəqiqə |
| 100 şəbəkəxarici dəqiqə | 150 şəbəkəxarici dəqiqə | 250 şəbəkəxarici dəqiqə | 500 şəbəkəxarici dəqiqə | 1000 şəbəkəxarici dəqiqə |
| 200 tarifdaxili dəqiqə | 300 tarifdaxili dəqiqə | 600 tarifdaxili dəqiqə | 2000 tarifdaxili dəqiqə | 3000 tarifdaxili dəqiqə |
| Pulsuz | Pulsuz | Pulsuz | Pulsuz | Pulsuz |
| Acar sözü: S10 | Acar sözü: S15 | Acar sözü: S25 | Acar sözü: S50 | Acar sözü: S75 |

"Sərbəst" tarif paketlərinə qoşulmaq qaydası çox sadədir: Fakturasız Xətt abunəçiləri müvafiq açar sözünü 7575 qısa nömrəsinə, Fakturalı Xətt abunəçiləri isə 650 qısa nömrəsinə göndərə bilərlər.

Qeyd edək ki, "Sərbəst" tarif paketinə ilk dəfə qoşulan Fakturalı Xətt abunəçilərinə 50% endirim təqdim edilir.

Sizə ən uyğun "Sərbəst" tarif paketini seçin və sevdiklərinizlə ünsiyyətinizə sərhəd qoymayın!

Əlavə məlumat üçün aşağıdakı səhifələrə daxil olun:
https://www.azercell.com/az/personal/tariffs/prepaid/serbest/
https://www.azercell.com/az/personal/tariffs/postpaid/serbest_postpaid/

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Təcili işləri daha yaxşı hesab etdiyiniz zamanadək ertələməyin. Başladığınız işi yanlışlıqlarsız, səhvsiz yerinə yetirməyə çalışın. Vaxtınıza qənaət edin. Yaşama daha pozitiv baxın.



**Buğa** - Yaradıcılıq ideyalarınız bol olacaq. Prosesin maraqlı olması üçün fəaliyyətinizi məntiqli təşkil edin. Aldığınız məlumatları qaydaya salın, gərəksiz informasiyalara ciddi önəm verməyin.



**Əkizlər** - Yaranmış problemləri ən müxtəlif instansiyalarda həll etməyə çalışın. İşdə həmkarlarla və ya işgüzar tərəfdaşlarla müzakirələr üçün əlverişli zamandır. Hər şeyi təmkinlə, sakit şəkildə həll etməK olar.



**Xərçəng** - Yaradıcı potensialınızdan maksimum istifadə edin. Görüşü, diskussiyanı, müzakirələri təxirə salmayın. Energetik səviyyəniz yüksəkdir. Təmaslardan yeni layihəniz üçün yararlanın.



**Şir** - Günün ilk yarısından etibarən maddi məsələlərin həllinə başlayın. Situasiyanın yaratdığı süni məhdudiyyətlərin qarşısında geri çəkilməyin. Planlarınızı reallaşdırın, istəklərinizi unutmayın.



**Qız** - İstənilən, hətta ən kiçik hadisələri təhlil etməklə vaxtınızı hədər keçirməyin. Sürətli seçim edin və dərhal işə başlayın. Ev işlərini görmək, məişət qayğılarını çözmək üçün yaxşı zamandır.



**Tərəzi** - Günün ilk yarısı neytral zamandır. Cari işlər, rutin qayğılar diqqət və səvaxtlıq tələb edir. Münasibətlərdəki xaosu aradan qaldırın, nizamsızlığın səbəblərini tapın. Başladığınız işi keyfiyyətlə görün.



**Əqrəb** - Yaşamın yaratdığı problemlər nə qədər ağır olsa, fəaliyyətiniz bir o qədər maraqlı təsir bağışlayacaq. Kreativ olun, amma başqasının əvəzinə çalışmayın. Özünüzü çox yormayın.



**Oxatan** - Günün ilk yarısı ağır zamandır. Təcili həll tələb edən məsələlərin sayı artacaq. Başqalarının işini görməyin. Ağır və mürəkkəb iş yaşam situasiyası ilə bağlı nigaranlıqdan qurtulmağa imkan verəcək.



**Oğlaq** - Günün ilk yarısında baş verəcək dəyişikliklərdən və formalaşan situasiyalardan yararlanaraq fəaliyyət istiqamətinizi dəyişə bilərsiniz. İş qrafikinə və planlara yenidən baxın.



**Dolça** - Sərt danışmayın, əsəblərinizi qoruyun. Konkret məsələ ilə bağlı mövqeyinizi yaxın ətrafınızdakı insanlara bildirəndə ehtiyatlı olun. Peşəkar fəaliyyət prosesini yaxşılaşdırmağa çalışın.



**Balıqlar** - Təmkinli olun, təxribatlara uymayın. Düşünülməmiş qərarlar xoşagəlməz vəziyyət yaradacaq. Başqasının badına getməyin. Aktiv fəaliyyətə can atsanız belə, cari işləri unutmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bir dəqiqədə internetdə nə baş verir...

**Hər birimiz gündə 1440 dəqiqənin şahidi oluruq. Kimi bu zamanın çoxunu yuxuda olarkən, kimi isə daha çox internetdə sərf edir.**

Hər dəqiqənin dəyərini bilməməyimizə baxmayaraq, söhbət "internetin dəqiqəsinə" gəlincə, əksəriyyətimiz daha çox "60 saniyələr"lə qarşılaşırıq. "Ted.az" bildirir ki, ölkəmizdə 8 milyondan çox istifadəçi sayının olmasını nəzərə alaraq, internet istifadəçilərinin ən çox vaxtlarını nəyə sərf etdiklərini bilmək maraqlıdır. Tim Berners-Lee tərəfindən həyatımıza daxil olan internet, istifadə etdiyimiz hər cür cihaza inteqrasiya olunur. "İnternet zamanı"na gəldikdə, ağla gələn ilk fəaliyyət şübhəsiz ki, "Google" axtarışlarıdır. "Google" 60 saniyədə orta hesabla 3,7 milyon axtarış aparır. "Google" axtarışlarından sonra təbii ki, internet istifadəçilərinin zamanlarını daha çox ayırdığı yer sosial mediadır. İnternetdə 60 saniyə içərisində tam 38 milyon "WhatsApp" mesajı göndərilir. "Facebook", "Twitter" "Instagram" statistikalarına görə: 60 saniyədə 973 min "Facebook" hesabı açılarkən, eyni vaxt ərzində 481 min "tweet", 174 min "Instagram" şəkilləri paylaşılır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.